Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.

Heydər ƏLİYEV

DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

6 aprel 2018-ci il № 25-28 (9211) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

BU SAYIMIZDA

DƏNİZÇİLƏR APRELİN 11-DƏ MÜSTƏQİL RESPUBLİKAMIZIN DAHA DA QÜDRƏTLƏNMƏSİNƏ SƏS VERƏCƏKLƏR

Prezident seçkiləri Azərbaycanın demokratik dəyərlərə sadiqliyini bir daha bütün dünyaya nümayiş etdirəcək

Səh. 2

KAPİTANIN BÖYÜK KÖMƏKÇİSİ: "DƏNİZÇİ OLMAĞIM MƏNƏ ÇOX ŞEY ÖYRƏDİB"

Müsahibimiz "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanmasına məxsus "Üfüq" gəmisi kapitanının böyük köməkçisi Samir Kərimovdur.

Səh. 3

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İLK KƏŞFİYYAT İDARƏSİ: "ƏKSİNQİLABLA MÜBARİZƏ TƏŞKİLATI"

Qəzetimizin bu sayında "Dənizçilər poliklinikası" MMC-nin həkimi Adıgözəl Məmmədovun Azərbaycan Xalq Cümhuriyyətinin "Əksinqilabla Mübarizə Təşkilatı" barədə araşdırmalarını oxucularımızın diqqətinə təqdim edirik.

Səh. 4

"DƏNİZ AKADEMİYASINDA HƏR ŞEY ÜRƏYİMCƏDİR"

Ramal Hüseynov 1996-cı ildə Saatlıda doğulub. Rayondakı Səməd Vurğun adına 1 saylı məktəbdə orta təhsil alıb. 2014-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına qəbul olub.

Hazırda Akademiyanın "Nəqliyyatda daşınmaların və idarəetmənin təşkili mühəndisliyi" ixtisasının IV kursunda oxuyan Ramal tələbəliyinin son aylarını yaşayır.

Səh. 5

ƏLƏT YENİ İPƏK YOLUNUN ƏN ÇOX UĞUR QAZANACAQ LOGİSTİKA VƏ İSTEHSAL ZONASIDIR

Dünyanın məşhur nəşrlərindən olan "Forbes" jurnalı "XXI əsrin ən böyük 5 yeni İpək Yolu layihəsi" adlı məqaləsində Bakının Ələt qəsəbəsi ərazisində tikilmiş Beynəlxalq Dəniz Ticarət Limanından yazıb.

Səh. 6

YELKƏNÇİMİZ BEYNƏLXALQ YARIŞDA YÜKSƏK NƏTİCƏ GÖSTƏRİB

Yelkənli İdman Federasiyasının gənc yelkənçisi Kristina Kərimova beynəlxalq yarışda yüksək nəticə göstərib.

Səh. 8

Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 2 oktyabr tarixli 794-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 444; 2006, № 12, maddə 1029; 2007, № 5, maddə 442, № 6, maddə 562, № 8, maddə 756; 2009, № 12, maddə 948; 2010, № 3, maddə 171; 2012, № 7, maddə 643; 2013, № 3, maddə 214; 2014, № 4, maddə 325; 2015, № 1, maddə 1; 2016, № 1, maddə 7; 2017, № 11, maddə 1961) aşağıdakı dəyişikliklər edilsin:

1. 12.1.2-ci maddədə, 13.3-cü maddənin ikinci cümləsində, 30.2.12-ci maddədə, 288.1-ci maddənin birinci cümləsində "qeydə alınmış" sözləri "dövlət qeydiyyatına alınmış" sözləri ilə əvəz edilsin.

2. 62.1.3-cü maddədə "qeydiyyata almaq" sözləri "dövlət qeydiyyatına almaq" sözləri ilə əvəz edilsin.

3. 293.3-cü maddədə "qeydə alınmalıdır" sözləri "dövlət qeydiyyatına alınmalıdır" sözləri ilə əvəz edilsin.

4. 295-ci maddə üzrə:

4.1. birinci cümlədə "qeydiyyat" sözü "dövlət qeydiyyatı" sözləri ilə əvəz edilsin;

4.2. ikinci (hər iki halda) və üçüncü cümlələrdə "qeydiyyata alınmış" sözləri "dövlət qeydiyyatına alınmış" sözləri ilə əvəz edilsin.

5. 297.1.2-ci, 297.1.3-cü, 297.2-ci, 298.1-ci və 301.0.21-ci (hər iki halda) maddələrdə "qeydiyyata alınmış" sözləri "dövlət qeydiyyatına alınmış" sözləri ilə əvəz edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 6 mart 2018-ci il.

"Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1041-VQD nömrəli Qanununun tətbiqi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1041-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 16 mart 2018-ci il.

APRELİN 11-İ QEYRİ-İŞ GÜNÜDÜR

2018-ci il aprelin 11-i Azərbaycan Respublikası Prezidenti seçkiləri günü olduğundan həmin gün qeyri-iş günüdür. Bu barədə AZƏRTAC-a Əmək və Sosial Müdafiə Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev məlumat verib.

Onun verdiyi məlumata görə, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli Sərəncamına uyğun olaraq, Azərbaycan Respublikası Prezidenti seçkiləri 2018-ci il aprelin 11-nə təyin olunub: "Seçki Məcəlləsinin 8.2-ci maddəsinə əsasən səsvermə günü seçki (referendum) keçirilən ərazidə iş günü hesab olunmur. Habelə Əmək Məcəlləsinin 105-1-ci maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikasında bələdiyyə üzvlərinin seçkiləri, həmçinin referendum zamanı səsvermə günü seçki (referendum) keçirilən ərazidə iş günü hesab edilmir. Bununla əlaqədar, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin Kollegiyasının müvafiq qərarı ilə təsdiq edilmiş "2018-ci il üçün iş vaxtının norması"na və "2018-ci ilin istehsalat təqvimi"nə əsasən, Azərbaycan Respublikası Prezidenti seçkiləri günü olan aprelin 11-i qeyri-iş günü kimi müəyyən olunub".

Nazirliyin şöbə müdiri onu da əlavə edib ki, ümumilikdə, 2018-ci il üçün 40 saatlıq iş həftəsində iş vaxtının illik norması 1919 saat, o cümlədən aprel ayı üzrə 159 saat təşkil edir. Altıgünlük iş həftəsi olan iş yerlərində də 40 saatlıq iş həftəsində çalışan işçilər üçün həmin beşgünlük iş həftəsi üzrə hesablanmış illik iş vaxtı norması, yəni 1919 saatlıq norma tətbiq olunur: "Növbəti ayda, yəni may ayında isə iki bayram günü var: 9 May-faşizm üzərində Qələbə günü və 28 May-Respublika günü. Əmək Məcəlləsinin 105-ci maddəsinin 2-ci hissəsinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2017-ci il 6 dekabr tarixli 540 nömrəli qərarına əsasən həmin bayram günləri iş günü hesab edilmir. Həmçinin 28 may bazar ertəsinə təsadüf etdiyindən beşgünlük iş həftəsi üzrə işləyənlər bununla əlaqədar əvvəlki iki istirahət günləri-şənbə və bazar günləri də nəzərə alınmaqla üç gün istirahət imkanı əldə edəcəklər. Ümumilikdə may ayı üzrə aylıq iş vaxtı norması 167 saat təşkil edir".

MODERNLƏŞDİRİLMİŞ "DAĞISTAN" GƏMİ-BƏRƏSİ DƏNİZ SINAĞINDAN UĞURLA ÇIXIB

Uzunluğu 154.5 metr, eni 18.3 metr olan "Dağıstan" gəmisi 1984-cü ildə keçmiş Yuqoslaviyanın (indiki Xorvatiya) Pula şəhərində tikilib. Beş il əvvəl istismardan çıxarılan "Dağıstan" bərəsinin yenidən təmir və modernləşdirilməsi barədə qərar qəbul edilib. Öz dövrü üçün unikal gəmilərdən hesab edilən bərənin modernləşdirilməsi bir il müddətində tam olaraq Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin mühəndis-texniki personalı tərəfindən "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda reallaşdırılıb. Vurğulayaq ki, Gəmiçilik tarixində ilk bu cür modernləşdirmə layihəsi də elə qurumun adıçəkilən heyəti tərəfindən hazırlanmışdır.

Gəmi-bərənin bütün idarəetmə sistemləri modernləşdirilib. Əsas işlərdən biri isə bərənin maşın şöbəsində reallaşdırılıb.

"Dağıstan" bərəsinin istifadəetmə müddəti bitmiş iki köməkçi mühərriki "Hyundai" markalı mühərriklərlə əvəzlənib. Yeni quraşdırılan və 1000 kilovat gücündə olan mühərriklər əvvəlkilərlə müqayisədə daha qənaətcil, effektiv və avadanlığa göstəriləcək xidməti asanlaşdırmaq baxımından sərfəlidir.

Köməkçi mühərriklərlə yanaşı, gəminin əsas hərəkətverici qüvvəsi olan baş mühərrikləri də yenilənib. Müqayisə üçün qeyd edək ki, gəminin əvvəlki baş mühərrikləri 122 ton çəkiyə malik idisə, yeniləri 31.9 tondur. Eyni zamanda həddindən artıq ağır çəkiyə və böyük ölçülərə malik köhnə mühərriklərdən fərqli olaraq yeniləri öz funksionallığı ilə seçilir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin sifariş etdiyi Finlandiyanın "Wartsila" şirkətinin istehsalı olan W32 model baş mühərrikləri dünya gəmiqayırma sahəsində lider brendlərdən hesab olunur.

Bu mühərriklər yanacağa qənaət etməklə yanaşı, atmosferə atılan zərərli maddələrin də miqdarını minimuma endirir. Yeni mühərriklər yanacaq sərfiyyatını 30 faizə qədər azaldır. Ən önəmlisi isə odur ki, bu mühərriklər "Atmosferin çirkləndirilməsinə qarşı" konvensiyanın tələblərinə uyğun sertifikata malikdir.

Yeni reduktorun quraşdırılması isə mühərriklərin işə salınmasını və hazırlanmasını asanlaşdırır, bununla da yanacaq sərfiyyatını xeyli azaltmağa imkan verir. Baş mühərrikin dövrləri sayını azaldır.

Həmçinin mühərrikin idarəetmə postu da tam olaraq müasirləşdirilib. Burada texnikanın son nailiyyətlərinə uyğun olaraq yeni avadanlıqlar quraşdırılıb.

Gəminin qəza - generator şöbəsi də modernləşdirilib. Şöbədə bütün müasir gəmilərdə olduğu kimi, mövcud idarəetmə və nəzarət sistemi yaradılıb.

(Ardı 2-ci səhifədə)

DƏNİZ

6 aprel 2018-ci il № 25-28 (9211)

DƏNİZÇİLƏR APRELİN 11-DƏ MÜSTƏQİL RESPUBLİKAMIZIN DAHA DA QÜDRƏTLƏNMƏSİNƏ SƏS VERƏCƏKLƏR

Prezident seçkiləri Azərbaycanın demokratik dəyərlərə sadiqliyini bir daha bütün dünyaya nümayiş etdirəcək

Dinamik inkişafını yeni uğurlara imza atmaqla davam etdirən müstəqil Azərbaycan artıq iqtisadi baxımdan dünyanın qüdrətli ölkələrindən birinə çevrilməkdədir. BMT-nin İnkişaf Proqramının "İnsan İnkişafı İndeksi" hesabatları da Azərbaycanın regionun lider dövləti olmaqla yanaşı, MDB ölkələri sırasında inkişaf və rəqabətqabiliyyətlilik, yoxsulluğun aradan qaldırılması və digər sahələrdə böyük uğurlar qazandığını sübut edir.

Qarşıdan isə prezident seçkiləri gəlir.

Aprelin 11-də keçiriləcək növbəti prezident seçkilərinin də şəffaf, ədalətli olacağına və xalqın iradəsini əks etdirəcəyinə söhbət etdiyim çoxsaylı dənizçilərin də heç birinin şübhəsi yoxdur.

Taleyini dəniz nəqliyyatı ilə bağlayanlar əmindirlər ki, bu seçkilər də Azərbaycanın demokratik dəyərlərə sadiqliyini bir daha bütün dünyaya nümayiş etdirəcək və demokratik inkişafının göstəricisi kimi yadda qalacaq.

Seçkilər insanların cəmiyyətin siyasi-ictimai həyatında iştirakının ən kütləvi formasıdır. Demokratik ölkələrdə xalq dövlətin idarə edilməsində iştirak hüquqlarını əsasən seçkilər vasitəsilə reallaşdırır.

Demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəliləyən ölkəmizin demokratikləşməsi isə dövlət siyasətinin əsas istiqamətlərindəndir.

Yaxın keçmişdə - müstəqilliyimizin ilk illərində bizi daha çox "qara qızıl"ımıza görə tanıyırdılar. Ümummilli liderimiz Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi illərində respublikamızı həm də sivil, demokratik dəyərlərə üstünlük verən modern bir ölkə kimi tanımağa başladılar. Ulu öndərin müdrik siyasi xəttinin son on beş ildə möhtərəm prezidentimiz İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi nəticəsində dünyada Azərbaycanın nüfuzu xeyli yüksəlib, demokratik imici daha da möhkəmlənib. Xalq hakimiyyətinin, bərabərlik və azadlığın sinonimi olan demokratiya artıq ölkəmizdə yaşam tərzinə çevrilib. Demokratik seçkilər keçirmək ənənəsinə və iradəsinə, bu sahədə zəngin təcrübəyə malik ölkəmizdə indiyə qədər keçirilən seçkilər demokratik prinsiplərə və seçki qanunvericiliyinin tələblərinə əsaslanmaqla xalqımızın siyasi iradəsini dolğun şəkildə əks etdirib.

Artıq Azərbaycan Respublikası Prezidenti seçkilərinə sayılı günlər qalıb. Seçkilərə hazırlıq, təşviqat işi ölkə qanunvericiliyinə uyğun həyata keçirilir. Seçki prosesində demokratikliyin və şəffaflığın təmin edilməsi üçün vacib olan bütün zəruri addımlar atılır. Buna görə, xalqın öz siyasi iradəsini tam ortaya qoyması üçün vacib olan seçkilərin şəffaf, demokratik şəkildə keçəcəyinə heç bir şübhə yoxdur.

Ölkəmizin hər yerində olduğu kimi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində də bu mühüm əhəmiyyətli dövlət tədbirinə məsuliyyətlə yanaşılır. Həmin gün Xəzərdə və ya xarici sularda xidməti vəzifələrini yerinə yetirən dənizçilərimiz də səsvermə hüquqlarından istifadə edəcəklər. Onlar mövcud qanunvericiliyə uyğun olaraq gəmilərdə səs verəcəklər.

İnanıram ki, həmişə ictimai fəallıqları ilə seçilən dənizçilərimiz ölkəmiz üçün vacib olan bu seçkidə də yüksək səviyyədə iştirak edəcək, inandıqları və etibar etdikləri ən layiqli namizədə səs verəcəklər.

Müstəqil Azərbaycanın tarixində ilk demokratik prezident seçkiləri 1993-cü ilin oktyabrında keçirilib və o vaxtdan Azərbaycanda seçki təcrübəsi və mədəniyyəti daha da yüksəlib. İndiyə qədər ölkəmizdə keçirilən seçkilər demokratik prinsiplərə və seçki qanunvericiliyinin tələblərinə əsaslanmaqla xalqımızın siyasi iradəsini dolğun şəkildə əks etdirib. Təbii ki, bütün bunların kökündə ilk növbədə Azərbaycan hakimiyyətinin ölkədə demokratik dəyərlərin möhkəmlənməsi ilə bağlı qətiyyətli mövqeyi dayanır.

Əminəm ki, budəfəki prezident seçkilərində də xalqımız obyektiv reallığa, kosmik sənayeyə malik ölkələr sırasına daxil olan Azərbaycanın son 15 ildə keçdiyi tarixi inkişaf yolunun məntiqi yekununa əsaslanan düzgün seçim etməklə müdrikliyini bir daha sübut edəcək.

Bu gün birmənalı şəkildə deyə bilərik ki, bizim son illərdə topladığımız seçki təcrübəsi bir çox beynəlxalq təşkilatlar, onların Azərbaycanda olmuş müşahidəçiləri tərəfindən də təqdir olunur.

Seçki qanunvericiliyi mükəmməl hüquqi baza kimi demokratik tələblərə tam cavab verən ölkəmizdə aprelin 11-də keçiriləcək prezident seçkiləri Azərbaycana olan dərin inam və etimadı daha da gücləndirəcək, respublikamızın demokratik imicinin möhkəmlənməsinə mühüm töfhələr verəcək.

Əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də hər bir namizəd üçün azad rəqabət şəraiti yaradılıb. Seçki komissiyalarının maddi-texniki təchizatı, komissiya üzvlərinin peşəkarlığı, bir çox seçki məntəqələrində veb-kameraların quraşdırılması, müxtəlif yerli və beynəlxalq təşkilatlar tərəfindən "exit-poll"un keçirilməsi, müşahidəçilərin sayının çoxluğu seçkinin tam şəffaf şəkildə və demokratik normalara uyğun baş tutacağına əminlik yaradır.

Beynəlxalq ictimaiyyətin də aprelin 11-də keçiriləcək prezident seçkilərinə böyük diqqəti səbəbsiz deyil. Çünki Azərbaycan regionun ən güclü dövlətidir. Dünyanın enerji və nəqliyyat təhlükəsizliyinin təmin olunmasına çox mühüm töhfələr verir. Respublikamızın təşəbbüsü və birbaşa iştirakı ilə reallaşan strateji layihələr beynəlxalq mövqeyini və əhəmiyyətini artırıb. Regionun humanitar, elmi mərkəzi kimi də geniş nüfuza malik ölkəmiz bir çox beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir.

Yaxın keçmişdə xəyal kimi görünən nəhəng layihələr həyata vəsiqə alır. Qürur və fəxarət hissləri doğuran uğurlarımız çoxdur və bütün bunlar Ulu öndərin təməlini qoyduğu və Azərbaycan dövlətinin ardıcıllıqla həyata keçirdiyi və inkişaf etdirdiyi siyasi-iqtisadi kursun alternativi olmadığını bir daha təsdiqləyir.

Ötən 25 ildə ölkəmizdə keçirilən 5 prezident, 5 parlament, 4 bələdiyyə seçkisi, o cümlədən 3 referendum demokratik seçki praktikasının təkmilləşdirilməsi, seçki təcrübəsinin artırılması ilə əlamətdar olub. Seçkilərin şəffaflığını təmin etmək üçün hətta böyük demokratiya tarixi olan ölkələrdə tətbiq olunmayan mexanizmlərdən, müasir informasiya texnologiyalarının imkanlarından istifadə edilib.

2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə əlaqədar Bakı şəhərindəki Hilton otelində Mərkəzi Seçki Komissiyasının "Seçki-2018" Müstəqil Media Mərkəzi fəaliyyət göstərir.

Qeyd edək ki, yüksək tələblərə cavab verən zəruri texniki avadanlıqla təchiz edilmiş Mərkəzin yaradılmasında başlıca məqsəd seçkiləri geniş, operativ və obyektiv işıqlandırmaq, eləcə də seçkilərdə şəffaflığın təmin edilməsi üçün yerli və beynəlxalq kütləvi informasiya vasitələrinin nümayəndələrinə seçkilərlə bağlı məlumat əldə etməkdə və operativ şəkildə ictimaiyyətə çatdırmaqda yardım göstərməkdir.

Burada media təmsilçiləri üçün kompüterlər, telefon və faks aparatları quraşdırılıb, həmçinin onlar pulsuz və fasiləsiz internetdən istifadə edə bilərlər. Prezident seçkiləri müddətində 24 saat ərzində fəaliyyət göstərəcək Müstəqil Media Mərkəzi mətbuat konfransları keçirmək və bəyanatlar vermək üçün də açıqdır. Prezidentliyə qeydə alınmış namizədlər öz seçkiqabağı təşviqat materiallarını Mərkəzin saytında yerləşdirə bilərlər.

Mərkəzin www.sechki-2018.az internet səhifəsi Azərbaycan, rus və ingilis dillərində mütəmadi fəaliyyət göstərir. Bu səhifədə seçki prosesi ilə bağlı səlahiyyətli şəxslərin və ekspertlərin rəyləri, açıqlama və bəyanatlar yerləşdirilir, həmçinin seçkilərlə bağlı foto və video görüntülər təqdim edilir.

Prezident seçkilərini izləmək üçün 871 beynəlxalq müşahidəçi Mərkəzi Seçki Komissiyasında (MSK) akkreditasiyadan keçib. Onlar 58 beynəlxalq təşkilatı təmsil etməklə 59 ölkənin vətəndaşlarıdır.

Eyni zamanda, indiyədək 56 min 864 yerli müşahidəçi də akkreditasiyadan keçib. Onlardan 1962-si MSK-da akkreditasiyadan keçərək bütün ölkə ərazisində, 54 min 902-si isə dairə seçki komissiyalarında akkreditasiyadan keçərək müvafiq dairənin hüdudları daxilində müşahidə aparmaq hüququ qazanıb.

Siyasi partiyalar tərəfindən aşağı seçki komissiyalarına 5099 məşvərətçi səs hüquqlu üzv təyin olunub.

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) müşahidə missiyası da Azərbaycanda keçiriləcək prezident seçkilərini müşahidə edəcək.

33 nəfərlik nümayəndə heyətinə rumıniyalı deputat Viorel Rikard Badea rəhbərlik edəcək. Onlar ATƏT Parlament Assambleyası və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun müşahidəçiləri ilə birlikdə seçkiləri izləyəcəklər.

Missiyanın namizədlər və ya onların nümayəndələri, siyasi partiya rəhbərləri və Mərkəzi Seçki Komissiyasının sədri ilə görüşləri nəzərdə tutulur. Nümayəndə heyətinə səfər zamanı Venesiya Komissiyasının üzvü - Avropa Şurasının müstəqil hüquqi ekspertlər qrupu hüquqi yardım göstərəcək.

Missiyanın aprelin 10-da Bakıya gəlməsi gözlənilir. Onlar seçki ilə bağlı ilkin rəylərini aprelin 12-də açıqlayacaqlar.

Bolqarıstanın Azad və Demokratik Seçkilər üçün Vətəndaş Təşəbbüsü (GISDI) qeyri-hökumət təşkilatı aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı aralıq hesabatını açıqlayıb.

GISDI-nin uzunmüddətli müşahidə missiyasının təqdim etdiyi aralıq hesabatında hazırkı geosiyasi vəziyyət Azərbaycanda 11 aprel prezident seçkilərinin keçirilməsini zəruri edən hal kimi qiymətləndirilir, seçkilərin müşahidə edilməsinin demokratik və ədalətli seçkilər üçün beynəlxalq standartlara uyğun olduğu vurğulanır. Hesabatda Azərbaycanın siyasi, iqtisadi və mədəni xüsusiyyətləri də nəzərdən keçirilir, seçkiqabağı vəziyyət və seçkilərin keçirilməsi üçün hüquqi çərçivə dəyərləndirilir, namizədlərin irəli sürülməsi və qeydiyyatı, təşviqat kampaniyası, onun KİV-də işıqlandırılması və s. kimi məsələlərə münasibət bildirilir.

Sənəddə prezidentliyə namizədlərin irəli sürülməsi və qeydiyyatı ilə bağlı prosedur və tələblərin tam və aydın şəkildə qanunda öz əksini tapdığı bildirilir. Vurğulanır ki, bəzi siyasi partiyalar istisna olmaqla qeydiyyata alınmış siyasi partiyaların əksəriyyəti prezident seçkilərində iştirak etmək istəklərini ifadə ediblər.

Hesabatda müxtəlif təşkilatlar tərəfindən seçkiöncəsi keçirilmiş sosioloji sorğuların nəticələri təhlil edilir. Sorğuların nəticələrinə istinad edən hesabat müəllifləri respondentlərin böyük əksəriyyətinin Azərbaycanda ictimai-siyasi vəziyyəti sabit kimi qiymətləndirdiyini, Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasəti dəstəklədiyini bildirirlər. Respondentlərin böyük əksəriyyəti bütün sorğularda hazırda fəaliyyət göstərən Prezidentin reytinqinin çox yüksək olduğunu və seçkilərdə onu dəstəkləyəcəyini vurğulayıb.

Hesabat müəllifləri qeyd edirlər ki, digər müxalifət partiyalarını və birliklərini prezident seçkilərində iştirakdan çəkindirən əsas səbəb onların şansızlığının əvvəlcədən bəlli olması ilə bağlıdır. Ənənəvi boykotçu olan iki müxalifət və onların satellit təşkilatlarının seçkilərdə namizəd irəli sürməkdən imtinasının səbəbləri ekspert rəyləri ilə izah edilir. Göstərilir ki, əsas səbəb onların irəli sürəcəkləri namizədin əsas namizədlə rəqabət etmək imkanının olmaması ilə əlaqədardır.

GISDI seçkilərin keçirilməsi üçün mövcud hüquqi çərçivəni qiymətləndirərək xatırladır ki, Seçki Məcəlləsi Avropa Şurasının Venesiya Komissiyası, ATƏT/DTİHB və Beynəlxalq Seçki Sistemi Fondu (IFES) ilə sıx əməkdaşlıq nəticəsində 2003-cü ilin may ayında qəbul edilib.

Hesabat müəllifləri Azərbaycandakı seçki sistemi, Mərkəzi Seçki Komissiyasının fəaliyyəti haqqında da məlumat verirlər.

Hesabatda seçicilərin maarifləndirilməsi və səlahiyyətləri məsələlərinə də geniş yer ayrılır. Bildirilir ki, Mərkəzi Seçki Komissiyası (MSK) seçicilərin məlumatlılığının artırılması, məntiqli seçim etmək və səsvermə kimi mülki hüquqlarından istifadə etmək səlahiyyəti vermək məqsədilə müxtəlif layihələr həyata keçirib. MSK çoxsaylı çap materialları hazırlayıb və paylayıb, dövlət və özəl mediada radio və televiziya proqramları təşkil edib. Eyni zamanda, Youtube-da və digər sosial mediada bir sıra maarifləndirici qısametrajlı videolar yerləşdirilib. Seçki kampaniyası zamanı qeydə alınmış namizədlərə pulsuz efir vaxtı və nəşr üçün yer ayıracaq teleradio verilişləri təşkilatları və dövri nəşrlər müəyyən edilib. Televiziya və radioda təşkil edilən pulsuz efir vaxtından namizədlər özləri və ya nümayəndələri vasitəsilə istifadə edirlər. Hər hansı pozuntu qeydə alınmayıb.

Hesabatda bildirilir ki, namizədlərin seçicilərlə görüşləri üçün qanunvericiliyə uyğun olaraq ölkənin 70-dən artıq şəhər və qəsəbəsində yerli icra hakimiyyəti orqanlarının qərarları ilə xüsusi yerlər müəyyən olunub.

Aralıq hesabatında ümumiləşdirmələr aparılaraq bildirilir ki, ölkədə demokratik seçkilər keçirməyə tam yararlı, beynəlxalq standartlara uyğun hüquqi çərçivə mövcuddur. Seçkiqabağı mühit sabitdir, seçicilərin öz seçimini azad ifadə etmək, ədalətli və demokratik seçkilərin təşkili baxımından heç bir təhlükə yoxdur. Azad və demokratik seçkilərin keçirilməsi baxımdan ölkədəki makrosiyasi mühit münbitdir.

GISDI 1990-cı ildə Bolqarıstanda təsis edilib. Bu təşkilat seçkilərin müşahidə olunması sahəsində ixtisaslaşıb və yaradıldığı vaxtdan indiyədək Bolqarıstanda müşahidə missiyalarını həyata keçirib. GISDI bir sıra beynəlxalq seçki müşahidə missiyalarında iştirak edib. Azərbaycanda isə 2003-cü ildən etibarən seçkiləri müşahidə edir.

Azərbaycanın 1993-cü ildən sonra qazandığı müvəffəqiyyətlər Ulu öndərin siyasi kursuna alternativ olmadığını bir daha təsdiqləyir.

Son 15 ildəki bütün uğurlarımız isə bu kursa sədaqətimizin və möhtərəm Prezidentimiz İlham Əliyevin onu məharətlə davam etdirməsinin bəhrəsidir. Azərbaycanın keçmiş SSR-nin çökməsindən sonra yaranmış dövlətlər arasında müstəqil siyasət yürüdən iki-üç ölkədən biri olduğunu indi dünyanın bütün ölkələrində etiraf edirlər. Sirr deyil ki, Azərbaycanın iqtisadi qüdrətinin artması onun beynəlxalq mövqelərinin güclənməsinə də müsbət təsir göstərir.

Mövcud sosial-iqtisadi tərəqqinin möhkəm özüllər üzərində qurulması, kifayət qədər güclü bazisə söykənməsi isə qarşıdakı dövr ərzində də Azərbaycanın qət edəcəyi inkişaf yolunun daha möhtəşəm uğurlarla müşayiət olunacağını deməyə əsas verir. Deməli, daha gözəl günlərimiz də qabaqdadır.

Səffaf, ədalətli seçkilər həm də inkişafa, sabitliyə, milli həmrəyliyə zəmanət verir.

Aprelin 11-də keçiriləcək prezident seçkilərində Azərbaycan xalqı müstəqil seçim imkanından istifadə edəcək və gələcək inkişafına səs verəcək. Bu seçkilər, eyni zamanda, sürətlə inkişaf edən Azərbaycan üçün islahatların davamına zəmin yaradacaq.

Bircə qaldı aprelin 11-də seçki məntəqələrinə getmək və ən layiqli namizədə səs vermək! Dənizçilərimiz kimə səs verəcəklərini çoxdan bəyan ediblər. Kimə səs verəcəklər?

Parlaq Günəş,
Yoxsa ki,
Gələcəyə şam ilə?
Dənizçilər deyirlər:
"Daha gözəl günlərə
Gedərik İlham ilə!"

Rasif TAHİROV

MODERNLƏŞDİRİLMİŞ "DAĞISTAN" GƏMİ-BƏRƏSİ DƏNİZ SINAĞINDAN UĞURLA ÇIXIB









(Əvvəli 1-ci səhifədə)

Maşın şöbəsində aparılan modernləşmə bununla bitmir. Burada mərkəzi idarəetmə postunun nəzarət sistemi yaradılıb. Mühərriklərin işinə nəzarət edəcək monitorlar quraşdırılıb. Buradan mühərriklərin işləməsinə nəzarət etmək mümkündür. Həmçinin köməkçi mühərriklərə nəzarət cihazları yenilənib. Artıq balast və quruducu sistemlərə nəzarət həddindən artıq ağır, yöndəmsiz və az funksional avadanlıqlarla deyil, sensor monitor-kompyuterlə həyata keçirilir. Bir sözlə, modernləşmə zamanı "Dağıstan" gəmi-bərəsinin bütün idarəetmə sistemləri daha müasirləri ilə əvəz edilib.

Eyni zamanda gəminin yanacaq yandırma sistemləri əvəzlənməklə buxar qazanı müasirləşdirilib. Bundan başqa, pərlərə nəzarət sistemi, köməkçi burun sükanı, radionaviqasiya və elektrik avadanlıqları, generatorları da bütün müasir texnoloji normalara cavab verən təzələri ilə əvəzlənib. Bərənin köməkçi - yağ, su, balast sistemləri təmir olunub. Nəzarət kameralarının quraşdırılması bərədə baş verən bütün proseslərə kapitan körpüsündən və maşın şöbəsindən nəzarət etməyə imkan verir.

Gəmi-bərənin gövdə hissəsi də əsaslı şəkildə təmir olunub. Bərənin suüstü və sualtı hissələri qruntlanaraq, rənglənib.

Bərənin daxilində məişət otaqları, kayutlar, dəhlizlər, istirahət güşələri əsaslı şəkildə təmir olunub. Yeməkxana və mətbəx lazımi avadanlıqlarla təchiz edilib.

Qeyd edək ki, modernləşdirmə işlərinin yekununda "Dağıstan" gəmi-bərəsi dəniz sınağından uğurla keçmişdir.

Yükgötürmə qabiliyyəti 2425 ton olan "Dağıstan" bərəsinin iki avtomobil və bir vaqon göyərtəsi var ki, onlar da əsaslı şəkildə təmir olunub və rənglənib. İşıqlandırma sistemləri tamamilə dəyişdirilib. Elə burda da layihəsi Gəmiçiliyin texniki işçiləri tərəfindən hazırlanmış modernləşdirmə həyata keçirilib. Belə ki, gəminin sağ tərəfinin arxa hissəsində avtomobillərin göyərtəyə daxil olması üçün yeni rampa quraşdırılıb. Əvvəllər gəmiyə TIR və minik avtomobillərinin yüklənməsi əməliyyatı yalnız arxa (vaqonlar daxil olan) rampa vasitəsi ilə reallaşdırılırdı.

Modernləşdirilmiş "Dağıstan" gəmisi Xəzərdə yeganə bərə operatoru olan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin bərə donanmasında özünəməxsus yer alıb. Gəminin artıq Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə istismarına start verilib.

"Dağıstan" gəmi-bərəsi Azərbaycanın tranzit əlbəbdiciliyinin artırılması və regionun ən iri nəqliyyat-logistika mərkəzinə çevrilməsi istiqamətində aparılan dövlət siyasətinin həyata keçirilməsində mühüm rol oynayacaq.

"APREL DÖYÜŞLƏRİ BİZİM ŞANLI HƏRBİ QƏLƏBƏMİZDİR, DÖVLƏTİMİZİN, XALQIMIZIN, ORDUMUZUN GÜCÜNÜ GÖSTƏRƏN QƏLƏBƏDİR"

Azərbaycan Ordusunun parlaq tarixi qələbələrindən olan şanlı Aprel döyüşlərindən iki il ötür.

2016-cı il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad edib. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçib. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə 23 ildən sonra xalqımıza qələbə sevinci yaşadıb.

Həqiqətən də dövlətimizin başçısının dediyi kimi, Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərdi. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verir ki, Azərbaycan Ordusu təmas xəttində mövcud vəziyyətə tam nəzarət etsin və lazımi tədbirləri görə bilsin.

Aprel döyüşlərinin ən böyük tarixi əhəmiyyəti bu qələbə sayəsində "Böyük Qayıdış" prosesinə start verilməsi oldu. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində Cəbrayıl

Silahlı Qüvvələrimizin həyata keçirdiyi əks-həmlə əməliyyatının məqsədi Ermənistan silahlı qüvvələrinin təmas xəttindəki yaşayış məntəqələrinə törətdiyi təhlükəni aradan qaldırmaq idi. Belə ki, 2016-cı ilin martından başlayaraq, Ermənistan silahlı qüvvələrinin birləşmələri cəbhəboyu zonadakı yaşayış məntəqələrini daha sıx atəşə tutmağa başlamışdı. Vəziyyəti gərginləşdirmək məqsədilə erməni hərbi birləşmələri artilleriya qurğularından həm döyüş mövqelərimizi, həm də təmas xəttinə yaxın olan yaşayış məntəqələrini atəşə tuturdu. Düşmən aprelin 2-nə keçən gecə bütün mövqelərimizi, eyni zamanda, mülki əhalini atəşə tutub. Azərbaycan tərəfindən dərhal adekvat tədbirlərin görülməsi ilə bağlı qərar qəbul edilib və qəti cavab zərbələri endirilib. Düşmən müdafiəsinin ön xəttində və dərinliyində yerləşən koordinatlar müəyyənləşdirilib, Ermənistan ordusunun canlı qüvvəsi və hərbi texnikası məhv edilib.

Aprel hadisələrində cəbhənin ən gərgin istiqaməti Ağdərə-Tərtər-Ağdam və Füzuli istiqaməti olub. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri aprelin əvvəlində qısa müddətdə düşmənin ön və dərinlikdə cəmləşən qüvvələrini müəyyənləşdirib və qəti zərbələrlə sıradan çıxarıb. Uğurlu əməliyyatlar nəticəsində Naftalan şəhərinə təhlükə yaradacaq Talış kəndi istiqamətindəki yüksəkliklər işğalçılardan təmizləndi. Həmçinin Horadiz şəhərinin düşmən təhlükəsindən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən olduqca strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi də ələ keçirilib.

Ordumuzun qəti zərbələri nəticəsində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edilib, 320 hərbçisi öldürülüb, 500-dən artıq döyüşçüsü yaralanıb. Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılması təmin edilib.

Ermənistan ordusunun təmas xəttində törətdikləri təxribatlar zamanı dinc əhali arasında da həlak olan və yaralananlar olub, yaşayış məntəqələrimizə böyük ziyan dəyib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə Azərbaycan hərbçilərinin xüsusi fərqlənən bir qrupu 2016-cı il aprelin 19-da Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə yüksək fəxri ada layiq görülüb, orden və medallarla təltif edilib.

Vətən qarşısındakı xidmətlərinə görə təltif edilənlər arasında "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına, "Azərbaycan Bayrağı" və "Vətənə xidmətə görə" ordenlərinə, "Vətən uğrunda", "İgidliyə görə" və "Hərbi xidmətlərə görə" medallarına layiq görülənlər vardır.

Aprel döyüşləri Azərbaycan xalqının və Ordusunun tarixi ərazilərimiz olan Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad edilməsi üçün hər cür fədakarlığa və hərbi qüdrətə hazır olduğunu düşmənlə yanaşı, bütün dünyaya sübut etdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun Aprel qələbələrinin ildönümü ilə əlaqədar martın 31-də bir qrup hərbçimizlə görüşdə deyib: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir".

rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə "Böyük Qayıdış" prosesinə start verildi. Artıq bu kəndin əhalisinin 23 illik fasilədən sonra doğma torpaqlarına qayıtması işğal altındakı digər ərazilərimizin də tezliklə azad olunmasına bütün xalqımızda dərin inam yaratdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təmas xəttinə gedərək, Ermənistan ordusunun atəşləri nəticəsində yaşayış məntəqələrimizə dəyən ziyanla yerində tanış olmaları, yerli əhali, eləcə də ön xətdə şəxsi heyətlə görüşü xalqımızın və Ordumuzun düşmən üzərində qəti qələbəyə ümidlərini daha da artırdı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Aprel döyüşlərinin əhəmiyyəti barədə dediyi sözlər bu qələbənin Ordumuz və xalqımız üçün önəmini açıq şəkildə ifadə edir: "Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha onu göstərdi ki, biz bu vəziyyətlə barışmayacağıq. Onu göstərdi ki, xalq-iqtidar birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün həmişə olduğu kimi birinci yerdə duran prioritet məsələdir".

İNSANLIĞA SIĞMAYAN BƏŞƏRİ CİNAYƏTİN QURBANLARI YAD EDİLİB

1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə əlaqədar Azərbaycan Dövlət Dəniz Akademiyasında anım tədbiri keçirilib.

Əvvəlcə vətənimizin ərazi bütövlüyü, suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin və 31 mart soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükütla yad olunub.

Tədbiri giriş nitqi ilə açan akademiyanın rektoru Çingiz Əliyev xalqımızın tarixində qəhrəmanlıq səhifələri ilə yanaşı, acı və kədərli məqamların da olduğunu vurğulayıb. Qeyd edilib ki, 1918-ci ilin martında və aprelində Bakı, Şamaxı, Quba, Lənkəran, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə ermənilər tərəfindən törədilmiş qətl və qırğınlar tariximizin ağrılı və faciəli səhifələrindəndir.

Rektor ölkə başçısı İlham Əliyevin 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Sərəncamının bir neçə aspektdən çox mühüm əhəmiyyət daşıdığını, Azərbaycan Prezidentinin dövlətçilik tariximizə, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin fəaliyyətinə verdiyi yüksək dəyəri, Azərbaycan Respublikasının öz sələfinin hüququ və mənəvi mirasına sədaqətini nümayiş etdirdiyini xüsusi vurğulayıb.

Sonra "1918-ci ilin martında türk-müsəlman soyqırımı haqqında", "31 mart qanla yazılmış yaddaşımızdır" mövzularında məruzələr dinlənilib.

Çıxışlarda 1918-ci ilin mart hadisələrinin tarixi kökləri, xarakteri və miqyası barədə məlumat verilib, Azərbaycan həqiqətlərinin beynəlxalq aləmdə təbliği istiqamətində gənclərin rolu vurğulanıb.

Daha sonra "1918-ci ilin mart soyqırımı sənədlərin dili ilə" adlı video-film nümayiş olunub.

AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASININ YENİLƏNMİŞ VEB-SAYTI TƏQDİM EDİLİB

Azərbaycan Dövlət Dəniz Akademiyasının Heydər Əliyev adına muzey-lektoriyasında rebrendinq çərçivəsində Akademiyanın müasir tələblərə cavab verən, təkmilləşdirilmiş, yeni imkanlarla zənginləşdirilmiş rəsmi veb-saytının təqdimatı keçirilib.

Təqdimatda AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun əməkdaşları, ADDA-nın rəhbərliyi iştirak edib.

ADDA-nın saytının yenilənərək rekonstruksiya və redizayn edilməsi AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu tərəfindən həyata keçirilib. İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri Gülnarə Nəbibəyova çıxış edərək hazırda istənilən qurumun, təşkilatın veb-saytının yaradılmasının böyük əhəmiyyət kəsb etdiyini qeyd edib və saytın təhlükəsizlik tələbləri barədə məlumat verib. Sonra Akademiyanın İnformasiya resurs mərkəzinin mühəndisi Zaur Mustafayev veb-saytın dizayn, texniki və proqram təminatında edilən yeniliklər, dəyişikliklər barədə təqdimatla çıxış edib.

ADDA (Azərbaycan Dövlət Dəniz Akademiyası) saytın domain adında da əksini tapıb. adda.edu.az saytında istifadəçilərin lazımı informasiyanı tez zamanda əldə etməsi üçün müasir veb-dizayn komponentlərindən istifadə olunub. AzScienceNet elm kompüter şəbəkəsinin Data mərkəzində yerləşən, üç dildə fəaliyyət göstərəcək saytda texniki və proqram təminatı cəhətdən ən müasir yeniliklər tətbiq edilib. ADDA-nın yenilənmiş veb-saytı AR Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılması və idarə edilməsinə dair Tələblər"ə və AR Xüsusi Dövlət Mühafizə Xidmətinin tələblərinə uyğunlaşdırılaraq Azərbaycan Respublikasında rəsmi veb-saytlar üçün qoyulan bütün təhlükəsizlik tələblərinə cavab verir. HTML5, jQuery, CSS3, Cross Browser texnologiyalarından və CMS platformasından istifadə olunmaqla təhlükəsizlik amili tam təmin olunub. Responsiv dizayna malik sayt izlənmə statistikasının aparılması məqsədilə Google Analitics-ə qoşulub və veb-saytın dünya reytinqində yer alması üçün "Webometrics" tələbləri əsas götürülüb.

Saytda Akademiyanın struktur bölmələri haqqında məlumat bazası ilə yanaşı, ADDA-nın nəzdində fəaliyyət göstərən Təlim-Tədris Mərkəzi, Dənizçilik Kolleci haqqında informasiyalar da yer alıb. Yaxın zamanda saytın əlavəsi kimi Elektron Akademiya layihəsi çərçivəsində EDUMAN sistemi sayta inteqrasiya ediləcək və test rejimində istifadəçilərə təqdim olunacaq.

Daha sonra rebrendinq çərçivəsində Akademiyanın yeni korporativ loqotipi təqdim edilib. Bu barədə məlumat verən İRM-in müdiri S.Rzayeva minimalizm stili bazasında qurulan yeni loqotipdə müasir dənizçilik təhsili konsepsiyasının prioritet götürüldüyünü, əsas komponentlər kimi gəmi, şturval və kitabın yer aldığını və loqo "Beynəlxalq sularda üzən gəmilərimizin işıqlı yolu yalnız təhsildən keçir" fəlsəfəsini əks etdirdiyini qeyd edib.

Sonda Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru, texnika üzrə fəlsəfə doktoru Çingiz Əliyev çıxış edərək İnformasiya Texnologiyaları İnstitutu və Azərbaycan Dövlət Dəniz Akademiyasının elmi əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi istiqamətində görülən tədbirlərdən söz açıb, AMEA-nın prezidenti, akademik Akif Əlizadə, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev və institutun əməkdaşlarına veb-saytın yeni versiyasının yaradılmasında göstərdikləri köməyə görə öz təşəkkürünü bildirib.

KAPİTANIN BÖYÜK KÖMƏKÇİSİ: "DƏNİZÇİ OLMAĞIM MƏNƏ ÇOX ŞEY ÖYRƏDİB"

Müsahibimiz "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanmasına məxsus "Üfüq" gəmisi kapitanının böyük köməkçisi Samir Kərimovdur.

– Söhbətimizə sizi tanımaqdan başlayaq.

- 1979-cu ildə Bakıda dünyaya gəlmişəm. 1998-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasını "Texnik gəmi sürücüsü" ixtisası üzrə bitirmişəm. Əmək fəaliyyətinə 2000-ci ildə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində matros kimi başlamışam. Artıq 11 ildir ki, Xəzər Dəniz Neft Donanmasının gəmilərində üzürəm. Hazırda "Üfüq" gəmisi kapitanının böyük köməkçisiyəm. Ailəliyəm, iki övladım var.

– Ümid edirəm ki, dənizçi peşəsini təsadüfən seçməmisiniz?

- Xeyr. Birinci sinifdə oxuyurdum, məktəbdə bayram keçirirdik. Hərəyə bir forma geyindirmişdilər. Mənim əynimdə isə matros forması var idi. İndiki kimi yadımdadır. Sinif yoldaşlarımdan biri dedi ki, böyüyəndə polis olacağam. Mən isə matros olacağımı dedim. İllər keçdi, böyüdük… O polis, mən matros oldum. Demək olar ki, bu peşəyə məndə uşaqlıqda dənizçi formasını geyinəndə həvəs yaranıb. Düzdür, burda valideynlərimin də təsiri olub. Onlar mənim dənizçi olmağımı arzulayırdılar. Peşman deyiləm. Çox şərəfli peşədir.

- Dənizçi olmaq sizə nə öyrətdi?

- Dənizçi olmağım mənə çox şey öyrədib – mərd və cəsur olmağı, daim bilik səviyyəsini artırmaq üçün çalışmağı, vaxtında düzgün və dəqiq qərarlar verməyi və s.

– Ümumiyyətlə, dəniz və dənizçilik sizin üçün nə ifadə edir?

- Dənizçi olmağım mənim üçün böyük məna kəsb edir. Mən dənizə bağlıyam. Özümü başqa yerdə, başqa peşədə görmürəm. Dəniz mənim həyatımın ayrılmaz hissəsidir.

- Dənizçilərin əksəriyyəti istedadlı olur. Kimisi şeir yazır, kimisi rəsm çəkir… Sizin də belə bir tərəfiniz varmı?

- Bəli, mən suvenirlər hazırlayıram. Bu həvəs məndə dənizçi olduqdan sonra yaranıb. Demək olar ki, təsadüfən ortaya çıxmış bacarıqdır. "MPK-455" gəmisində asudə vaxtımda gəmilər barədə internetdən məlumatlara baxırdım. Diqqətimi balaca bir gəmi suveniri cəlb etdi. Baxdım və öz-özümə dedim ki, mən niyə belə bir şey düzəltməyim?! Dərhal taxtadan onun bənzərini hazırladım. Beləcə, məndə həvəs yarandı.

– Gələcəkdə əl işlərinizdən ibarət sərgi təşkil etmək fikriniz varmı?

- Sərgi üçün düşünürəm ki, onların sayı azdır. Amma gələcəkdə bunu çox istəyərdim. Niyə də olmasın? Əl işlərimin bəzilərini iş yoldaşlarıma hədiyyə vermişəm, bəzilərini satmışam. Suvenir hazırlamaq asan deyil. Çox vaxt aparan işdir. Mən onları adətən evdə olarkən düzəldirəm.

- Başqa istedadınız da var?

- Rəsm də çəkə bilirəm. Hərdən dənizdə yol gedəndə isə şeir yazmaq təbi gəlir.

DƏNİZ

6 aprel 2018-ci il № 25-28 (9211)

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ - 100

General Məmməd bəy Sulkeviç: "Xoşbəxtəm ki, müsəlman ordusunun zabiti kimi ölürəm"

O, Bakının dənizdən qorunmasına da xüsusi diqqət yetirilməsini istəyirdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi xalqımızın qədim və zəngin dövlətçilik tarixinə böyük ehtiramın göstəricisidir. Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın dövlətçilik tarixində özünəməxsus dəyərlər miras qoyub. Ulu öndərimiz Heydər Əliyev bunu həmişə yüksək dəyərləndirirdi.

Prezident İlham Əliyevin imzaladığı Sərəncamda deyilir: "...Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoyub, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayıb". Bu zəmin 1991-ci ildə gerçəkləşdi, Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu.

"Azərbaycan Xalq Cümhuriyyəti İli" – 2018-ci il həm də Azərbaycan Ordusunun 100 illik yubiley ilidir.

AZƏRTAC bu münasibətlə Silahlı Qüvvələrin Hərbi Akademiyasının dosenti, polkovnik Atamalı Şahbazovun məqaləsini təqdim edir.

Azərbaycan Xalq Cümhuriyyəti ordusunun formalaşmasında, inkişafında və yüksək döyüş qabiliyyətli orduya çevrilməsində son dərəcə mühüm xidmətlər göstərmiş hərbçilərdən biri də general-leytenant Məmməd bəy Sulkeviçdir. Çar ordusunda zəngin hərbi təcrübə əldə edərək general-leytenant rütbəsinə qədər yüksələn M.Sulkeviç Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarov tərəfindən ölkəmizə dəvət edilib. S.Mehmandarov general M.Sulkeviçin Cümhuriyyət ordusunun Baş Qərargah rəisi vəzifəsinə təyin edilməsi haqqında Azərbaycan hökuməti qarşısında vəsatət qaldırıb.

Milliyyətcə Polşa tatarlarından olan Məmməd bəy (Masey) Sulkeviç 1865-ci il iyunun 20-də Polşanın Kemeyşi malikanəsində dünyaya göz açıb. Atası Aleksandr Sulkeviç qusar alayında polkovnik hərbi rütbəsində xidmət edib. İlk hərbi təhsilini Voronej kadet korpusunda və Mixaylov artilleriya məktəbində əldə edən Məmməd bəy (Masey) Sulkeviç 1886-cı ildə çar ordusunda hərbi xidmətə başlayıb və elə həmin ildə də ilk zabit rütbəsini alıb. 1894-cü ildə Rusiya İmperiyasının Baş Qərargahının Hərbi Akademiyasını bitirən gənc zabit 1910-cu ildə general-mayor, 1915-ci ildə isə general-leytenant hərbi rütbələrinə layiq görülür. O, 1900-1901-ci illər rus-çin və 1904-1905-ci illərdə rus-yapon müharibələrində iştirak edib. Rus-yapon müharibəsində azərbaycanlı generallar Səməd bəy Mehmandarov və Əlağa Şıxlinski ilə tanış olur. Birinci Dünya müharibəsində isə əvvəlcə korpusun qərargah rəisi, daha sonra Şimal cəbhəsinin 3-cü piyada diviziyasının və 37-ci piyada korpusunun komandiri vəzifələrində xidmət edib. Hərbi xidmətlə yanaşı, xeyriyyəçilik fəaliyyəti ilə də məşğul olan general Polşa tatarlarının etnoqrafiyasının tətqiqində və təbliğinə, həmin araşdırmaların dövri mətbuatda dərc olunmasına yardım edib. Məhz 1902-ci ildə onun təşəbbüsü ilə Peterburq Universitetinin polşalı professoru şərqşünas Muxlinckinin "Litva tatarlarının mənşəyi və vəziyyəti haqqında elmi araşdırma" kitabına "Ön söz" yazıb. M.Sulkeviç həmin kitabın Odessa hərbi dairəsinin mətbəəsində çapı ilə bağlı bütün xərcləri öz üzərinə götürüb.

Fevral inqilabından sonra - 1917-ci ilin iyulunda Kazanda Rusiya müsəlmanlarının qurultayında yaradılan əsgəri şuraya rəhbərlik edən M.Sulkeviç Müvəqqəti hökumətin qərarı ilə Rumıniya cəbhəsindəki hərbi hissələrdəki üç diviziyanın tərkibində müsəlman korpusunun yaradılmasına başlayıb və həmin birləşmənin komandiri vəzifəsinə təyin edilib. Həmin korpusun komandir heyəti əsasən Polşa tatarlarından təmsil olunmuşdu.

General-leytenant Məmməd bəy Sulkeviç 1918-ci ilin son aylarına kimi Krımda yaradılmış yerli hökumətin Baş naziri, eyni zamanda, müdafiə və daxili işlər naziri kimi fəaliyyət göstərib.

Tam artilleriya generalı Səməd bəy Mehmandarov Rusiya ordusunda yaxşı tanınan və savadlı türk-müsəlman əsilli hərbçilərin Azərbaycan Xalq Cümhuriyyəti ordusuna cəlb edilməsini daim diqqət mərkəzində saxlayıb. Məhz bu səbəbdən hələ rus-yapon müharibəsindən tanıdığı generalı böyük məmnuniyyətlə Cümhuriyyət ordusuna dəvət edib.

S.Mehmandarov onun Baş Qərargah rəisi vəzifəsinə təyin edilməsini nəzərdə tutmuşdu. M.Sulkeviçə qədər Cümhuriyyət ordusunda Baş Qərargah rəisi vəzifəsi yox idi və bu vəzifə sahibinin görməli olduğu işlər başqa vəzifədə olan zabitlər tərəfindən yerinə yetirildi.

Ordunun Baş Qərargah rəisi vəzifəsinin təsis edilməsi ilə bağlı hərbi nazir Səməd bəy Mehmandarov hökumətə ünvanladığı məktubda göstərirdi ki, qoşunun təlim və döyüş hazırlığının artırılması işlərinin, cari məsələlərin, təsərrüfat problemlərinin bir qurumda, yəni, həmin dövrdə mövcud olan Ümumi Qərargahda birləşdirilməsi gözlənilən nəticəni vermir. Ordu böyüdükcə onun təsərrüfat məsələləri, təchizat və təminat qayğıları da artır. Onların həlli xeyli vaxt apardığından ordunun təşkili, döyüş hazırlığının lazımi səviyyədə aparılması üçün kifayət qədər vaxt ayırmaq mümkün olmurdu. Bu boşluğun aradan qaldırılması üçün Baş Qərargahın təsis olunması məqsədəuyğun hesab edilirdi. Onun fikrincə, belə bir strukturun yaradılmamasına səbəb indiyədək hazırlıqlı kadrların olmaması idi. Hərbi nazir hökumətə ünvanladığı məktubunda əlavə edirdi ki, üç müharibə iştirakçısı, təcrübəli hərbçi, general-leytenant Məmməd bəy Sulkeviçin Azərbaycana gəlişi belə bir strukturun təşkili üçün imkan yaradıb. Məhz bu səbəbdən general-leytenant Məmməd bəy Sulkeviçin Cümhuriyyət ordusunun Baş Qərargah rəisi vəzifəsinə təyin edilməsi barədə hökumət qarşısında vəsatət qaldırıldı. Hərbi nazir, tam artilleriya generalı Səməd bəy Mehmandarovun 1919-cu il 26 mart tarixli 147 nömrəli əmri ilə general-leytenant Məmməd bəy Sulkeviç Ordunun Baş Qərargah rəisi vəzifəsinin icrasına buraxılmışdı. Cümhuriyyət ordusuna qəbul olunma əmrində general Sulkeviçin adı Məmməd bəy kimi keçir, ona görə də onun Cümhuriyyət ordusuna qəbul olunmadan öncə Masey adını dəyişərək Məmməd bəy adını götürdüyünü ehtimal etmək olar. Həmin əmrin 2-ci və 4-cü paraqrafları Baş Qərargaha general-kvartirmeystr, hərbi-topoqrafiya, qoşunların daşınması üzrə idarənin, rabitə və avtomobil hissəsinin tabe edilməsi barədədir. Üçüncü paraqrafda Baş Qərargaha qoşunların təşkili, təlimi və dislokasiya edilməsi kimi əlavə vəzifələr həvalə edilir. Eyni zamanda, həmin əmrlə Baş Qərargah rəisinin Hərbi Şuraya üzv edildiyi göstərilir.

General Məmməd bəy Sulkeviç öncə vəzifənin icrasına buraxılıb və elə hökumətin qərarı ilə Baş Qərargahın ştatının təsdiqi ilə martın 26-dan həmin vəzifəyə təsdiq olunub. Hərb nazirinin 1919-cu il 28 mart tarixli 157 nömrəli əmri ilə Baş Qərargahın ştatının elan edilməsi ilə Baş Qərargahın tabeliyindəki idarələrin nəzdindəki bölmələr bir daha açıqlanır. Baş Qərargaha tabe olan general-kvartirmeystrə operativ-səfərbərlik, nizami və hesabat hissələrin, kəşfiyyat və əks-kəşfiyyat, rabitə bölməsinin daxil olduğu göstərilir. Hərbi nazir, eyni zamanda, hərbi attaşeliyin idarə edilməsini də Baş Qərargahın tabeliyinə verib. Məhz Məmməd bəy Sulkeviçin Cümhuriyyət ordusuna qəbul edilməsindən dərhal sonra ordunun "düşünən beyni" formalaşdırılıb. Həmin tarixədək bu vəzifələr qismən də olsa, Ümumi Qərargahın rəisi, general-mayor Həbib bəy Səlimov tərəfindən icra edilib.

General-leytenant Məmməd bəy Sulkeviçin Baş Qərargah rəisi vəzifəsinə təyin edilməsi ordu hissələrinin formalaşmasında quruculuq işlərinin sürətinə və keyfiyyətinə böyük təsir göstərdi. 2-ci Bakı piyada və 3-cü Şəki süvari alaylarının formalaşdırılması və təşkili tezliklə başa çatdırıldı.

General Sulkeviçin 1919-cu ilin yazından və yayından başlayaraq Azərbaycanın şimal sərhədləri boyunca yaranan Denikin təhlükəsinin qarşısının alınması üçün müdafiə tədbirlərinin həyata keçirilməsində xüsusi rolu olub. Arxiv sənədlərindən aydın olur ki, həmin dövrlərdə həyata keçirilən əsaslı müdafiə tədbirlərinin müəllifi məhz general Sulkeviçdir. O, vəzifə səlahiyyətləri çərçivəsində bu və ya digər müdafiə işlərinin icrasını təşkil edib, lazımi tədbirlərin görülməsi məqsədilə hərbi nazirin qarşısında vəsatət qaldırıb, təkliflərini yazılı şəkildə açıqlayıb. Həmin sənədlər bu günədək Mərkəzi Dövlət Arxivində saxlanılır. 1919-cu il iyulun 8-də hərbi nazirə ünvanladığı raportda M.Sulkeviç şimal sərhədləri ilə yanaşı, Bakının da dənizdən qorunmasına xüsusi diqqət yetirilməsinin vacibliyini vurğulayırdı. Həştərxandan Könüllü ordunun, bolşeviklərin dəniz qüvvələrinin istənilən vaxt Bakıya desant çıxara biləcəyini qeyd edərək topların müdafiə üçün yetərli olmadığını və bu məqsədlə bir sıra tədbirlərin dərhal həyata keçirilməsini lazım bilirdi. O, Xəzər sahillərinin, dənizdən şəhərin ətrafında artilleriya müdafiəsinin təşkil edilməsi, ingilislərin Bakını tərk etməsindən sonra Xəzərdəki ticarət limanlarının Yollar Nazirliyinin sərəncamına keçməsi ilə əlaqədar strateji əhəmiyyəti nəzərə alınaraq bütün hərbi dəniz məsələlərinin Hərbi Nazirliyin əlində cəmlənməsi tədbirlərinin görülməsini təklif edirdi. Bu vəzifələrin yerinə yetirilməyəcəyi təqdirdə şimal sərhədi, cəbhənin sağ cinahı və arxası dənizdən təhlükəyə məruz qala bilərdi.

General Sulkeviçə görə, dənizin müşahidəsinin təşkili həm sahil kəşfiyyatı, həm də üzən vasitələrlə təmin olunmalı idi. Təklif edilirdi ki, ingilislərin "Qars", "Ərdahan" və "Göy Təpə" hərbi gəmilərinin Azərbaycana verməsini gözləmək olmaz. Əvəzində Yollar Nazirliyinin təklif etdiyi iki paroxod alınsın, toplar və pulemyotlarla döyüş imkanı artırılsın və onların heyəti azərbaycanlılarla komplektləşdirilsin. General, həmçinin şəhərin artilleriya vasitələri ilə müdafiə edilməsini və bununla da Bakı ətrafının düşmən gəmilərindən qorunmasının mümkünlüyünü bildirirdi. Qeyd edirdi ki, Bakının mövqeyi onu etibarlı çarpaz top atəşləri ilə müdafiə etməyə imkanı verir. Onun fikrincə, Bayıl, Zığ və Nargin adalarında yerləşdirilmiş toplar şəhərin müdafiəsini xeyli gücləndirə bilərdi. Bunun üçün o, Gürcüstandan alına biləcək iriçaplı sahil topları ilə nəinki şəhərin, hətta dəniz kənarındakı digər məntəqələrin və sahil boyunca uzanan dəmir yolu xəttinin mühafizəsinin təşkil edilməsinin mümkünlüyünü bildirirdi.

1919-cu ilin avqustunda ingilislərin Bakını tərk etməsindən sonra vəziyyətin gərginləşməsi və şimaldan təhlükənin artması ilə əlaqədar general Sulkeviç 2-ci Azərbaycan piyada diviziyasının komandirinə göndərdiyi teleqramda bildirirdi ki, Bakı şəhərinin şimal tərəfdən qorunması həmin diviziyanın piyada alaylarına tapşırılacaq və onlara əlavə olaraq 5 min nəfərlik partizan dəstəsi veriləcək.

General Sulkeviç Cümhuriyyət ordusunda nizamnamələrin təkmilləşdirilməsi sahəsində də xüsusi rol oynayıb. Belə ki, o, hərbi hissələrdə döyüş hazırlığının təşkili ilə yaxından tanış olduqdan sonra 1919-cu il aprelin 12-də hərbi nazirə yazdığı raportda qoşunların təlim-tərbiyəsində rus ordusundan qalma nizami, piyada, süvari, topçu və çöl nizamnamələrinin, habelə piyada və topçular üçün atış təlimatlarının yenilənməsinin və yeni dövrün tələblərinə uyğun təkmilləşdirilməsinin vacibliyini bildirirdi. General Sulkeviç yazırdı ki, əsgərlərimizin öyrədilməsindəki çətinliklərin həlli əyani nümayiş, praktikanın nəzəriyyəyə görə üstünlük təşkil etməsini zərurətə çevirir. Sulkeviç nizamnamələrin təkmilləşdirilməsi ilə əlaqədar üç komissiyanın yaradılmasını təklif edirdi: Birinci piyada komissiyası piyadalar üçün sıra və atış nizamnamələrini, süvari komissiyası süvari nizamnaməsinin təkmilləşdirməli, ümumi komissiyanın üzvləri isə bütün qoşun növlərinin nümayəndələrini təşkil etməli idilər. Birinci komissiyaya 2-ci piyada diviziyasının komandiri İbrahim ağa Usubovun, ikinci və üçüncü komissiyaya isə süvari diviziyasının qərargah rəisi, general-mayor Amaşukelinin rəis təyin olunması təklif edilirdi. Bildirilirdi ki, nizamnamələrin məzmunu yalnız döyüş hazırlığına istiqamətləndirilməlidir.

General Sulkeviç, həmçinin Cümhuriyyət ordusunun hərbi qulluqçularının topçu işini öyrənmələrinə kömək məqsədilə ingilis ordusunun toplarından istifadə olunmasına dair danışıqlar aparıb. Razılıq alındıqdan sonra 2-3 zabitin rəhbərliyi ilə 50-80 nəfərlik qrupların yaradılması məqsədəuyğun hesab edilirdi. Bu kurslara şəxsi heyətin cəlb edilməsi üçün hərbi hissə komandirlərinə göstəriş verilmişdi.

Polkovnik Atamalı Şahbazov

Azərbaycan Xalq Cümhuriyyətinin ilk kəşfiyyat idarəsi: "Əksinqilabla Mübarizə Təşkilatı"

Qəzetimizin bu sayında "Dənizçilər poliklinikası" MMC-nin həkimi Adıgözəl Məmmədovun Azərbaycan Xalq Cümhuriyyətinin "Əksinqilabla Mübarizə Təşkilatı" barədə araşdırmalarını oxucularımızın diqqətinə təqdim edirik.

Rusiyada çar II Nikolay devrildikdən sonra Zaqafqaziyadakı yerli qüvvələr Peterburqun hadisələrə hərbi təsir etmək imkanlarının zəiflədiyini anlayaraq Tiflisdə hakimiyyəti ələ keçirmişdilər. Keçmiş çar Rusiyasının Tiflis canişinliyində Zaqafqaziyanın müvəqqəti hökuməti yaradılmış, Zaqafqaziya komitəsi təsis edilmişdi. Bu komitə hökumətin Zaqafqaziyadakı siyasətini həyata keçirirdi. Komitənin tərkibinə 2 kadet, 1menşevik, 1gürcü federalisti və 1 türk müsavatçısı daxil idi. Komitəyə Xarlamov rəhbərlik edirdi. Lakin Rusiyada hakimiyyətə gəlmək ərəfəsində olan bolşeviklər Zaqafqaziyada siyasi qüvvələrini hərəkətə gətirərək 1917-ci il oktyabrın 2-7-də Tiflisdə Qafqaz bolşevik təşkilatlarının I qurultayını keçirdilər. Qurultayda Qafqaz dairəsi formalaşdı. Bu dairə komitəsinə Çxakaya, Şaumyan, Caparidze, Maxaradze, Nazaretyan, Kasıyan, Mravıyan, Karqanov və sonradan Mikoyan da daxil oldu. 1917-ci ilin oktyabrında Lenin başda olmaqla bolşeviklər hakimiyyəti ələ keçirdilər. Ertəsi gün isə II Sovetlər qurultayında Almaniya və onun müttəfiqləri ilə Rusiya arasında "Sülh haqqında dekret" imzalandı. Bunu qəbul edən Almaniya danışıqlara razılığını verdi. 1918-ci il martın 1-də Brest-Litovskda konfrans öz işinə başladı. Vətəndaş müharibəsində gücdən düşən Rusiya sülh xatirinə Almaniyaya böyük bir ərazini – Qərbi Ukraynanı, Pribaltika və digər torpaqları güzəştə getdi. Elə həmin vaxtlarda Tiflisdə menşevik E.Qeqeçkorinin rəhbərliyi altında Zaqafqaziya komissarlığı yaradılmışdı, lakin bu hakimiyyət də uzun çəkmədi. Bolşeviklər 1918-ci il fevralın 10-da Moskvadan aldıqları hərbi-siyasi dəstəklə regionda siyasi hakimiyyəti əlində cəmləşdirmiş seçkili Zaqafqaziya seymini formalaşdırdılar. 1918-ci ildə Brest-Litovski sazişinə görə, Türkiyə tərəfi Zaqafqaziya seymindən Qars və Batum dairələrini tələb edirdi. Almanlar isə öz qoşunlarını Gürcüstandan Bakıya aparmaq istəyirdilər. Almanların Bakıya keçişinin qarşısını almaq üçün 1918-ci il aprelin 1-də türk ordusu Batuma daxil olur. Türk tərəfi, həmçinin Zaqafqaziya seyminin buraxılmasını və Zaqafqaziya respublikalarının müstəqilliyinin elan olunmasını tələb edirdi. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, məhz o günlərdə qədim İrəvan torpaqlarımız hesabına qondarma Ermənistan dövləti yarandı. Bəzi türk paşalarının çox ciddi təzyiqi ilə bu bağışlanılmaz səhfə imza atdılar. Təsadüfi deyil ki, o dövrdə qondarma Ermənistan dövlətini ilk tanıyanlardan biri də elə Osmanlı imperiyası oldu. Qeyd etmək lazımdır ki, Osmanlı imperiyasının o zamankı liderləri bu qəbildən olan strateji səhvlərə yol verərək imperiyanın sürətli çöküşünü qaçılmaz edirdilər. Osmanlı iqtisadiyyatının modernləşdirilməsi, ölkəyə müasir Avropa texnologiyalarının cəlb edilməsi, təhsilin və sənayenin inkişaf etdirilməsi əvəzinə, sultanlar imperiyanı diplomatik manevrlərlə qoruyub saxlamağa cəhd göstərirdilər. Beləliklə, 1918-ci il aprelin 9-da Seym öz fəaliyyətini dayandırğını elan etdi. Türk ordusunun komandanı Ənvər Paşa Ərəb cəbhəsindən ordusunun böyük hissəsini çıxararaq Cənubi Qafqaza istiqamətləndirdi. Baxmayaraq ki, bu addım çox riskli addım idi və sonradan bunun nəticəsində Ərəb cəbhəsində türk ordusunun mövqeləri zəiflədiyindən bu vəziyyət 1918-ci ildə ingilis kəşfiyyatçısı T.Lourens Hicazın şərifi Hüseynin oğlu Feysəlin və Fransız ordusu generalı Allenbinin başçılığı altında olan Antanta qüvvələrinin Dəməşqə qədər irəliləməsinə imkan verdi. Bu ərazi itkilərinin bahasına xilaskar Türk ordusu Qafqaza girərək azərbaycanlılara qarşı ermənilər tərəfindən törədilən soyqırımının qarşısını aldı və Azərbaycana gəlmiş bu ordu ölkəmizin milli müstəqilliyinin yaranmasına təkan verdi. 1918-ci il mayın 28-də Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti (Demokratik Respublika) elan olundu. Beləliklə də Azərbaycan xalqı Şərqdə ilk demokratik respublika qurdu. Türk ordusu ilə Azərbaycan milli ordusunun Gəncədən Bakıya istiqamət götürmüş hücumunun qarşısını heç bir mənfur qüvvə ala bilmədi. Bakı milli qüvvələrin əlinə keçdi. Tezliklə Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti və Fətəlixan Xoyskinin başçılığı ilə ilk hökuməti təşkil olundu. Azərbaycan Demokratik Respublikası fəaliyyət göstərdiyi 23 ay ərzində Milli Ordunun təşkili və həmçinin dövlətin təhlükəsizliyi baxımından general Səməd bəy Mehmandarov, general Əliağa Şıxlinski və general Məmməd bəy Sulkeviç xüsusi rol oynamışlar. Belə ki, 1919-cu il mart ayının 28-də hərbi nazir Səməd bəy Mehmandarovun və Baş Qərargah rəisi Məmməd bəy Sulkeviçin imzaladıqları 157 saylı əmrlə Hərbi Nazirliyin Baş Qərargahının general-kvartirmeystr şöbəsində kəşfiyyat və əks-kəşfiyyat bölməsi yaradıldı. Bu əmrdən sonra bölmənin komplektləşdirilməsi, əsas fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi sahəsində xeyli iş görüldü, lakin hərbi idarə çərçivəsində olan bu struktur fəaliyyətini yalnız təhlükəsizliyin hərbi aspektlərinə yönəldirdi. 1919-cu il aprelin 2-də Nazirlər Şurası sədrinin adına göndərdiyi məktubda Səməd bəy Mehmandarov yazırdı (Məmməd Cəfərli. "Azərbaycan Demokratik Respublikasının milli təhlükəsizlik orqanları", Bakı-2004): "Hərbi əks-kəşfiyyatın başlıca vəzifəsi dövlət daxilində hərbi casuslarla mübarizədir, bolşevizmlə mübarizə ümumdövlət işi olduğundan tək hərbi idarə onun öhdəsindən gələ bilməz...". Beləliklə, 1919-cu il aprelin 13-də dövlət hakimiyyətinin bütün strukturları Azərbaycan hökumətinin ixtiyarına keçdikdən sonra mərkəzləşdirilmiş kəşfiyyat və əks-kəşfiyyat haqqında məsələnin müzakirəsi mümkün oldu. Nəhayət, 1919-cu il iyunun 9-da Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin qərarı ilə Vətənin müdafiəsi sahəsində fövqəladə səlahiyyətlərə malik olan xüsusi orqan - Dövlət Müdafiə Komitəsi yaradıldı. Respublikanın daxilində və sərhədlərində vəziyyət daha da gərginləşdiyindən Dövlət Müdafiə Komitəsi 1919-cu il iyun ayının 11-də Azərbaycanda fövqəladə vəziyyət elan etdi və elə həmin günlərdə də müvafiq qərarla Azərbaycanın dövlət sistemində ilk dəfə idarə tabeçiliyi olmayan xüsusi xidmət orqanı- "Əksinqilabla Mübarizə Təşkilatı"nı yaratdı. Qısa müddət ərzində Bakıda təşkilatın yeddi rayon bölməsi yaradıldı. Yeni yaradılan bu strukturun rəhbəri Məmməd Bağır Şıxzamanov olur. Ancaq çox keçmir ki, paritet əsaslarla formalaşan "Əksinqilabla Mübarizə Təşkilatı" fəaliyyətsiz hala gəlir. Parlament 120 nəfərdən ibarət idi. Amma de-fakto parlamentin iclaslarında 120 nəfərin hamısı müntəzəm iştirak etmirdi. Hətta parlament yaradılandan sonra 1919-cu ilin əvvəllərində 79 nəfər iştirak edirdi. Parlamentdə "Müsavat" partiyası, onlarla müttəfiq olan bitərəf demokratlar qrupu, sağçı mövqedən çıxış edən, daha çox klerikal əhval-ruhiyyəli insanların, qrupların maraqlarını ifadə etməyə çalışan "İttihad" partiyası təmsil olunmuşdu. Bunlardan əlavə, Sosialist Bloku çox güclü bir qüvvə idi. Bu bloka Sosial-Demokrat və "Hümmət" partiyalarının üzvləri daxil idi. 1919-cu ildə "Əhrar" partiyası ölkənin partiya sisteminə qoşuldu. Əhrarçılar sosializmin və liberalizmin ideyalarını öz proqramında birləşdirməyə çalışırdılar. Milli azlıqlar Slavyan-Rus İttifaqı, Milli azlıqlar, Erməni və "Daşnaksütyun" fraksiyalarında cəmləşmişdilər. Çox paradoksal bir vəziyyət ondan ibarət idi ki, müstəqilliyimizi tanımayan bu daşnak qüvvələr də parlamentdə fəaliyyət göstərirdilər. Bu baxımdan yeni yaradılan "Əksinqilabla Mübarizə Təşkilatı"nda təmsil olunmuş partiyaların nümayəndələri səmərəli işləmək əvəzinə, daha çox bir-birilərini pusur və pozuculuqla məşğul olurdular. Bu da kəşfiyyat və əks-kəşfiyyat işini iflic hala salmışdı. Ona görə də bu paritet əsaslı struktur formalaşmasına etiraz edən Məmməd Bağır Şıxzamanov istefa verir. Məhz bu paritet sistemi əsasında gələcəkdə marşal rütbəsinə qədər boyüyən, sovet dövlətinin Stalin dönəminin əsas simalarından birinə çevriləcək Lavrenti Beriya Azərbaycan Demokratik Respublikasının xüsusi xidmət orqanlarına, sol yönümlü "Hümmət" siyasi təşkilatının görkəmli nümayəndələrindən biri olan Mirzə Balanın təqdimatı ilə işə götürülmüşdü. Məmməd Bağır Şıxzamanovun bu addımından sonra paritet əsaslı struktur formalaşmadan imtina edilir. Xüsusən də Türkiyənin müharibədə məğlubiyyəti ilə Azərbaycanda marağı olan ölkələrin kəşfiyyat orqanlarının tuğyan etdiyi bir yerə çevrilmişdi. Yeni səviyyədə kəşfiyyat işinin təşkilinə çox ehtiyac vardı. İmperialist dairələr Osmanlı imperiyasının itkiləri ilə kifayətlənməyib, Parisdə konfrans (1919-1920-ci illər) çağırmışdılar, onlar Türkiyəni parçalamaq, türk xalqını qula çevirmək, Azərbaycanı isə İtaliyaya vermək istəyirdilər. Təsadüfi deyil ki, həmin vaxt Azərbaycan nümayəndə heyətinin rəhbəri Əlimərdan bəy Topçubaşov ABŞ prezidenti Vilsonla görüşərək ondan Azərbaycanın müstəqilliyinin tanınmasını xahiş etmişdi. Onun xahişinə Vilson belə cavab verir: "Düşünürsünüz ki, biz müharibəni cırtdan dövlətlər yaransın deyə aparmışıq?" Lakin müstəqilliyimizin son aylarında bolşevik işğalı təhlükəsindən əndişələnən ABŞ və İngiltərə Azərbaycan Demokratik Respublikasının müstəqilliyini tanıyırlar. Amma artıq bu gec atılmış addım idi. Bu baxımdan milli maraqlara qulluq edə biləcək, kəşfiyyat məlumatlarının bu konteksdən toplayacaq peşəkar komandaya çox ehtiyac duyulurdu. Ona görə də "Əksinqilabla Mübarizə Təşkilatı"nın yeni rəhbəri Nağı Şıxzamanov isə çox ciddi kadr islahatları həyata keçirərək əsasən sadaqətli peşəkarlardan ibarət komanda formalaşdırır. Bax bu zaman Beriyanın sədaqətinə tam inanan Nağı bəy ona daha məsul vəzifəni tapşırır. O, "Əksinqilabla Mübarizə Təşkilatı"nın məktubların yoxlanılması şöbəsinin rəisi təyin edilir. Əslində, Beriyaya çox ciddi strateji bir sahə tapşırılmışdı. Ona görə ki, o dövrdə məktublar rabitənin ən birinci növü idi. Beriyanın bu təyinatı gələcəkdə onu ittiham atəşinə tutanların ən əsas arqumentinə çevriləcəkdi. Məntiqlə "Hümmət"in "Əksinqilabla Mübarizə Təşkilatı"ndakı nümayəndəsi paritet prinsiplərə son qoyulandan sonra istefa verməli idi, lakin Beriya nəinki bu strukturda öz vəzifəsini qorudu və hətta daha məsul vəzifəyə irəli çəkildi. Əlbəttdə, Beriya sonrakı tərcümeyi-halında bunları tamamən yazmır və gizlədir.

Adıgözəl Məmmədov,
"Dənizçilər poliklinikası" MMC-nin həkimi, araşdırmaçı-yazar

ÇİN AKTAUDAN VƏ YA ATIRAUDAN KEÇMƏKLƏ AZƏRBAYCANA DƏMİR YOLU XƏTTİ ÇƏKMƏYİ PLANLAŞDIRIR

Çin Aktaudan və ya Atıraudan keçməklə Azərbaycana dəmir yolu xətti çəkilməsi məsələsini gözdən keçirir.

KAZİNFORM xəbər verir ki, bu barədə Çin Xalq Respublikasının (ÇXR) Qazaxıstan Respublikasındakı səfiri Çjan Hanhuey mətbuat konfransında bildirib.

Diplomat Çinin Mərkəzi Asiyada böyük planları olduğunu və bunların həm ÇXR-ə, həm də Mərkəzi Asiya ölkələrinə fayda gətirəcəyini qeyd edib. Çjan Hanhuey bildirib: "Özbəkistandan və Qazaxıstandan keçməklə Türkmənistandan Çinə çəkilmiş qaz boru kəməri Honkonqa çatıb. Bu, dünyada ən uzun qaz boru xətti və ən mürəkkəb mühəndis sistemidir. Biz bunu etdik və məhz bu, müasir İpək Yoludur".

Diplomat, həmçinin əlavə edib ki, Qazaxıstandan keçməklə Mərkəzi Asiya ölkələrinə və Avropaya artıq iki dəmir yolu xətti çəkilib. Səfir deyib: "Bunun ardınca Türkmənistandan və Türkiyədən keçməklə Yaxın Şərqə, daha sonra Aktaudan və ya Atıraudan keçməklə Azərbaycana dəmir yolu xətti çəkilməsi imkanlarını öyrənəcəyik. Bundan ötrü texnologiya mövcuddur".

QAZAXISTANDAN AZƏRBAYCANA YÜKDAŞIMALAR ÇOXALACAQ

Qazaxıstanın "KTZ Express" Səhmdar Cəmiyyətinin vitse-prezidenti Sanjar Yelyubayev tranzit-nəqliyyat potensialının reallaşdırılması və Transxəzər beynəlxalq nəqliyyat marşrutunun inkişafı çərçivəsində aparılan islahatlar barədə danışarkən Kurık limanı vasitəsilə 26 milyon ton yükdaşımaların həyata keçirilməsinin mümkün olduğunu deyib. "Tərəfdaşlarımız olan "Azərbaycan Dəmir Yolları" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ilə daşıma sistemi texnologiyası demək olar ki, tam şəkildə hazırlanıb", - deyə o bildirib.

Qazaxıstanın yeni pilot layihəyə keçdiyini qeyd edən Sanjar Yelyubayev bərələrdən deyil, konteynerləri daşıyan gəmilərdən istifadə olunacağını söyləyib. O deyib ki, cari ildə Çindən Qazaxıstan ərazisindən keçməklə Azərbaycana, oradan da Avropaya tranzit yüklərin daşınmasının ikiqat artacağı gözlənilir. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə müxtəlif istiqamətlərdə bir milyon tonadək yük daşınması qarşıda duran başlıca vəzifələrdən biridir.

Sanjar Yelyubayev Qazaxıstanın 2020-ci ilədək Transxəzər beynəlxalq nəqliyyat marşrutu üzrə Avropa ilə Asiya arasında yüklərin daşınmasında tranzit habına çevriləcəyini və 2020-ci ildə daşınmaların 5 dəfə artacağının gözlənildiyi bildirib.

İlahə Əhmədova

"ŞİMAL-CƏNUB" NƏQLİYYAT DƏHLİZİ STAVROPOLDAN TAXIL İXRACINI ARTIRA BİLƏR

"Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin işə salınması Stavropol diyarında istehsal edilən taxılın Yaxın Şərq və Cənub-Şərqi Asiya ölkələrinə ixracını artıra bilər.

TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bu barədə Stavropolun kənd təsərrüfatı naziri Vladimir Sitnikov jurnalistlərə məlumat verib.

"Biz Novorossiyskə milyonlarla ton taxıl daşıyırıq. Yaxın Şərq və Cənub-Şərqi Asiya ölkələri istiqamətində isə ixracımız heç bir milyon tona çatmır. Yəni biz ixrac axınını çoxalda, qiymətləri sabitləşdirə, Körfəz, Asiya ölkələrinə çıxa bilərik. Bu, nəhəng bazardır və bizi orada gözləyirlər", - deyə Vladimir Sitnikov bildirib.

Nazir qeyd edib ki, indi bu istiqamətdə Stavropol diyarı təxminən 900 min ton taxıl ixrac edir. Proqnozlara görə, yeni istiqamətin açılması Stavropol taxılının alış qiymətini 10-15 faiz artırmağa kömək edəcək, ünvana çatdırılma vaxtını 5-7 gün azaldacaq. "2018-ci ildə layihənin birinci mərhələsi başa çatmalıdır. Stavropol logistika nöqteyi-nəzərindən ən əlverişli mövqedə yerləşir, biz yolun başlanğıcındayıq. Bu bizə müvafiq istiqamətdə nəqliyyat xərclərini 30 faizədək aşağı salmağa da imkan verər", - deyə V.Sitnikov qeyd edib.

"Şimal-Cənub" nəqliyyat dəhlizi yüklərin Cənub-Şərqi Asiya və Körfəz ölkələrindən Şimali Avropaya daşınmasına hesablanıb. Layihə çərçivəsində Azərbaycan, İran və Rusiyanın dəmir yollarını birləşdirmək nəzərdə tutulur. Birinci mərhələdə dəhliz vasitəsilə ildə 5 milyon ton yük daşımaq, gələcəkdə bunu 10 milyon tona çatdırmaq və daha da artırmaq nəzərdə tutulur. Bu dəhlizin əsas üstünlüyü yüklərin çatdırılma müddətinin iki dəfədən çox azaldılmasındadır.

TAP ÇOX ƏHƏMİYYƏTLİ LAYİHƏDİR

"Trans-Adriatik" (TAP) qaz boru kəməri Azərbaycan qazının Avropaya nəqlini nəzərdə tutan, Albaniya və region üçün çox əhəmiyyətli bir layihədir.

Bu barədə 2018-2030-cu illərin yeni enerji strategiyasının təqdimatı zamanı Albaniyanın infrastruktur və energetika naziri Damian Gjiknuri deyib.

O bildirib ki, TAP-ın tikintisi, eləcə də İon Adriatik Qaz Kəməri layihəsinin həyata keçirilməsi enerji səmərəliliyi təhlükəsizliyinin artırılması, enerji sektorunun inkişafına dəstək olacaq. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

Qeyd edək ki, Boru kəmərinin uzunluğu 878 kilometr (Yunanıstan–550 kilometr, Albaniya–215 kilometr, Adriatik dənizi–105 kilometr, İtaliya–8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə-37 düym). Boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçəcək. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.

TÜRKİYƏYƏ MƏXSUS YAXTA AZAD EDİLİB

Yunanıstan Akdənizdə Türkiyə bayrağı altına saxladığı "Halis Temel" yaxtasını qarşı tərəfə təhvil verib.



Yaxtanın kapitanı Hakan Tekerek 110 min avro pul müqabilində azad olunub. "Halis Temel" artıq Bodrum sularına gətirilib.

Xatırladaq ki, yaxta ötən il sentyabrın 23-də sənədlərin qaydasında olmaması əsas gətirilərək saxlanılıb. Yaxtanın göyərtəsində o zaman 18 ABŞ vətəndaşı olub.

Sabir Şahtaxtı

"DƏNİZ AKADEMİYASINDA HƏR ŞEY ÜRƏYİMCƏDİR"

Ramal Hüseynov 1996-cı ildə Saatlıda doğulub. Rayondakı Səməd Vurğun adına 1 saylı məktəbdə orta təhsil alıb. 2014-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına qəbul olub.

Hazırda Akademiyanın "Nəqliyyatda daşınmaların və idarəetmənin təşkili mühəndisliyi" ixtisasının IV kursunda oxuyan Ramal tələbəliyinin son aylarını yaşayır. Təxminən iki aydan sonra Akademiya ilə yollarını ayıracaq.

Ramal bütün gününü oxumaqla keçirir. Düşünür ki, yaxşı gələcək yaxşı təhsildən asılıdır.

- Ramal, dənizçi peşəsini ürəyinin hökmü ilə seçmisən, yoxsa...

- Əmim də, dayım da dənizçidirlər. Yadımdadır, mən uşaq olanda dənizçi olduqlarına görə qohumlar onlara xüsusi hörmət edirdilər. Hər kəsdən fərqlənirdilər, əsl dənizçi necə olmalıydısa, əmim və dayım da elə idilər. Onlara baxıb həvəslənirdim. Ona görə də qəbul imtahanından sonra düşünmədən Azərbaycan Dövlət Dəniz Akademiyasını yazdım. Düzdür, ixtisasım daha çox sahillə bağlıdır. Amma yenə də dənizçiliyin inkişafında payım olacaq deyə, sevinirəm.

- Yeri gəlmişkən, ixtisasınıza tələb böyükdür?

- "Nəqliyyatda daşınmaların və idarəetmənin təşkili mühəndisliyi" ixtisası üzrə təhsil alan tələbələr daşınmaları optimizə etməyi, donanmanın işinin planlaşdırılmasını, nəqliyyat vasitələrinin hərəkət rejimi və şərtlərini, gəmilərin iş göstəricilərinin hesablanmasını öyrənir, gəmilərin avtomatlaşdırılması, sahil qurğularının elektrik təchizatı üzrə ixtisaslaşırlar. Həm yerli, həm də xarici şirkətlərdə tələbat olan ixtisasdır. Bu ixtisas üzrə təhsilini başa vurmuş məzunlar port terminallar, gəmiçilik şirkətləri, su nəqliyyatı üzrə daşınmalarla məşğul olan sənaye müəssisələrində baş mühəndis, elektromexanik, energetik və başqa vəzifələrdə çalışa bilərlər.

- Təhsil almaq, tələbə olmaq çox yaxşıdır. Xüsusilə, dənizçi tələbə olmağın özəllikləri maraqlıdır...

- ADDA-nın tələbəsi olmaq qürurvericidir. Zəngin kitabxana, laboratoriyalar, Təlim Mərkəzi, təcrübəli müəllimlər biliklərimizin artırılmasında mühüm rol oynayırlar. Digər tərəfdən, Akademiya tələbələri geyim forması, gündə iki dəfə pulsuz yeməklə təmin edir. Məsələn, mən yataqxanada qalıram. Hər şey ürəyimcədir. Yaxşı ki, Dəniz Akademiyasına qəbul olmuşam.

- Hazırda təcrübədəsiniz? Öyrənmək üçün hansı imkanlar var?

- Bundan əvvəl də təcrübədə olmuşuq. İndi isə "AXDG" QSC-nin İstismar-kommersiya departamentində təcrübə keçirik. Öyrəndiklərimizi burada praktiki baxımdan təkmilləşdiririk. Departamentin əməkdaşları bizə hər cür kömək edirlər. Əminəm ki, onların təcrübələri gələcək işimizdə çox yaraya-caq.

- Gələcək planlarınızı bilmək olar?

- Təhsilimi xaricdə davam etdirmək, peşəkar kadr kimi dövlətimə faydalı vətəndaş olmaq istəyirəm. Bunun üçün çox çalışıram, əlimdən gələni edirəm. İnanıram ki, istəyimə nail olacağam.

- Son olaraq, dənizçi dostlarınıza, dənizçi olmaq istəyənlərə nə demək istəyərdiniz?

- Dənizçilik çox çətin peşələrdən biridir. Amma bu elə bir işdir ki, sən hər dəqiqə öyrənirsən, dünyagörüşünü artırırsan, yeni insanlar, yeni limanlar, yeni ölkələr görürsən. Olduqca maraqlıdır. Kim ki, dənizçi olmaq istəyir, qorxmasın. Əvvəldə dediyim kimi, Dəniz Akademiyasında təhsil almaq üçün hər cür şərait var. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəhbərliyi səviyyəsində də dənizçi tələbələrə hər zaman dəstək göstərilir. Məsələn, "AXDG" QSC-nin sədri Rauf Vəliyevin göstərişi ilə əlaçı tələbələrə işlə təmin olunmaq üçün "Zəmanət məktubu" verilir. Xaricdə oxumaq üçün "Təqaüd Proqramı" təsis edilib və s.

Rövşən Abdurəhmanov

TRANZİT TAXIL DAŞIMALARINA 45 FAİZ GÜZƏŞT TƏTBİQ EDİB

"Rusiya Dəmir Yolları" Açıq Səhmdar Cəmiyyəti (RDY ASC) Qazaxıstandan Cənubi Qafqaza tranzit taxıl daşımalarına 45 faiz güzəşt tətbiq edib. Bu qərar Cəmiyyətin idarə heyətinin iclas protokolunda öz əksini tapıb.

RDY ASC-nin "RJD-partnyor" saytı xəbər verir ki, Qazaxıstandan Kiqaş (Rusiya Federasiyası ilə Qazaxıstanın sərhədi – Samur (Rusiya Federasiyası ilə Azərbaycanın sərhədi) marşrutu üzrə inventar parkının vaqonlarında tranzit taxıl daşımaları üçün 45 faiz güzəşt tətbiq edilib.

MDB ölkələrinin dəmir yollarında tarif siyasəti üzrə beynəlxalq yükdaşımaların dərəcələrinə 0,55 indeksi 2018-ci il martın 1-dən dekabrın 31-dək qüvvədə olacaq. Bu müddətdə RDY ASC belə daşımalarda iştirak edən dəmir yolu administrasiyalarına məxsus qatarlardan istifadə edilməsinə görə ödənişdən azad olunur.

"ADY CONTAİNER" MERSİN-BAKI MARŞRUTU ÜZRƏ AYDA İKİ DƏFƏ YÜK DAŞIYACAQ

"ADY Container" Mersin (Türkiyə)-Bakı (Azərbaycan) marşrutu üzrə ayda iki dəfə yük daşıyacaq.

Bu barədə "ADY Container" şirkəti məlumat yayıb.

Bildirilib ki, adıçəkilən istiqamətdə konteyner blok qatarı fəaliyyətə başlayır və ayda iki dəfə yükdaşıma həyata keçiriləcək. Daşınma məsafəsi 2850 kilometr təşkil edir.

AVROPA İNVESTİSİYA BANKI TANAP-IN TİKİNTİSİNƏ 932 MİLYON AVRO KREDİT AYIRIB

Avropa İnvestisiya Bankı (EIB) TANAP qaz kəmərinin tikintisi üçün 932 milyon avro həcmində kredit ayırıb.

Bu barədə bankın mətbuat xidməti məlumat yayıb.

Məlumatda deyilir ki, əvvəlcə layihənin kreditləşməsi Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Dünya Bankı, Asiya İnfrastruktur İnvestisiya Bankına həvalə olunmuşdu. 2017-ci ilin oktyabrında AYİB layihəyə 500 milyon dollar kredit ayırıb.

Məlumat üçün qeyd edək ki, Avropa İttifaqı üçün ən prioritet layihələrdən biri olan "Cənub Qaz Dəhlizi" layihəsi Xəzər dənizindən hasil olunan Azərbaycan təbii qazının Gürcüstan vasitəsilə Türkiyəyə, oradan da Avropaya nəqli üçün nəzərdə tutulub.

"Şahdəniz" yatağından hasil olacaq Azərbaycan qazı birinci mərhələdə TANAP vasitəsilə bu ildən başlayaraq Türkiyəyə nəql olunacaq. İlk mərhələdə daşınacaq 16 milyon kubmetr qazın 6 milyon kubmetrə yaxını Türkiyəyə, qalanı isə Avropaya çatdırılacaq.

Gələcəkdə digər qaz yataqlarından hasil olunacaq "mavi yanacağın" da bu xətt ilə daşınacağı istisna olunmur.

Xətayi Əzizov

DƏNİZ

6 aprel 2018-ci il № 25-28 (9211)

VƏTƏGƏ ƏHƏMİYYƏTLİ BALIQLARIN ARTIRILMASI VƏ MÜHAFİZƏSİNƏ 3114,6 MİN MANAT SƏRF OLUNUB

Ötən il ölkədə vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi işlərinin yerinə yetirilməsinə 3114,6 min manat sərf olunub. Həmin vəsaitin 91,8 faizi süni balıqartırma müəssisələrinin fəaliyyətinə, 8,2 faizi isə balıqçılıq təsərrüfatları üzrə meliorasiya tədbirlərinin həyata keçirilməsi işlərinə xərclənib.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ötən il vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi ilə məşğul olan təsərrüfatlar tərəfindən təbii su hövzələrinə və anbarlarına buraxılan 437,2 milyon ədəd balıq körpələrinin 423,1 milyon ədədi çəkikimilərin, 8,4 milyon ədədi nərəkimilərin, 5,5 milyon ədədi bitki ilə qidalanan balıqların və 0,2 milyon ədədi qızıl balıqların payına düşüb.

Balıq və digər su bioloji resurslardan istifadə qaydalarına müvafiq olaraq, ölkədə 2017-ci ildə 136 hüquqi və fiziki şəxsə balıq ovu üçün verilmiş 1024,9 ton kvotaya qarşı 964,9 ton və ya 2016-cı illə müqayisədə 30,5 faiz çox balıq ovlanıb.

Ovlanmış balığın 559,1 tonu kilkə, 100,1 tonu kütüm, 74,9 tonu siyənək, 59,1 tonu kefal, 49,8 tonu külmə, 36,9 tonu çəki, 30,9 tonu çapaq, 24,7 tonu dabanbalığı, 5,6 tonu şamayı, 23,8 tonu digər balıq növlərinin payına düşüb.

AZƏRBAYCAN ƏRAZİSİNDƏ İÇMƏYƏ YARARLI SULAR QEYRİ-BƏRABƏR PAYLANIB

BMT-nin Baş Assambleyasının 1992-ci il 22 dekabr tarixli Qətnaməsinə əsasən hər il martın 22-də Ümumdünya Su Günü və ya Su Resursları Günü qeyd edilir.

Bu günün keçirilməsində əsas məqsəd su resurslarının mənimsənilməsinin hansı səviyyədə olmasına, iqtisadi və sosial rifahın səmərəliliyinin yüksəldilməsinə təsirinin müəyyənləşdirilməsinə və bu barədə maarifləndirmənin təmin edilməsinə, təmiz su ehtiyatlarının sürətlə azalması səbəbindən yaranacaq təhlükəli vəziyyətə diqqət çəkməkdir.

Hər il bir deviz altında keçirilən Ümumdünya Su Resursları Gününün builki mövzusu "Su üçün təbiət" idi.

Hazırda dünyada 2,1 milyard insan evlərində təhlükəsiz və sağlam su olmadan yaşayır.

Azərbaycan ərazisində içməyə yararlı sular məhdud ehtiyatlara malik olmaqla qeyri-bərabər paylanıb. Hazırda ölkənin yerüstü su ehtiyatları 27 kub-kilometr təşkil edir, quraq illərdə isə bu ehtiyat 20-21 kubkilometrə qədər azalır. Yerüstü su ehtiyatlarının mənbələrini çaylar, göllər, su anbarları və buzlaqlar təşkil edir. Ölkəmizin şirin su ehtiyatlarının 70-72 faizi ölkə hüdudlarından kənarda formalaşır.

Respublikamızın yerüstü su ehtiyatlarının 19-20,6 kubkilometri transsərhəd çayların, 9,5-10 kubkilometri isə yerli çay axınının hesabına formalaşır.

Hazırda Bakı şəhərində yaranan çirkab suları Hövsan, Sahil, Buzovna, Mərdəkan-Şüvəlan və Zığ təmizləyici qurğularında təmizləndikdən sonra Xəzər dənizinə axıdılır.

ƏLƏT YENİ İPƏK YOLUNUN ƏN ÇOX UĞUR QAZANACAQ LOGİSTİKA VƏ İSTEHSAL ZONASIDIR



Dünyanın məşhur nəşrlərindən olan "Forbes" jurnalı "XXI əsrin ən böyük 5 yeni İpək Yolu layihəsi" adlı məqaləsində Bakının Ələt qəsəbəsi ərazisində tikilmiş Beynəlxalq Dəniz Ticarət Limanından yazıb.

Məqalədə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin fəaliyyətinin beynəlxalq ticarətin, o cümlədən mədəniyyətlərin və iqtisadiyyatların bir mərkəzdə qovuşması baxımından yeni imkanlar açdığı xüsusi qeyd olunub.

Yazıda limanın ərazisində yaradılacaq Ələt Azad İqtisadi Zonasının yeni İpək Yolunun ən çox uğur qazanacaq logistika və istehsal zonası olacağı qeyd edilib. Vurğulanıb ki, Ələt qəsəbəsindəki yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ticarət zonası kimi ən üstün cəhətlərindən biri Çindən Avropaya qədər uzanan və bu yaxınlarda istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolunun, o cümlədən formalaşmaqda olan, Hindistanı İran və Rusiya ilə birləşdirəcək Şimal-Cənub nəqliyyat dəhlizinin də daxil olduğu "Bir



kəmər, bir yol" beynəlxalq nəqliyyat dəhlizinin üzərində yerləşməsidir.

Məqalədə bildirilib ki, Azərbaycan dünyanın sürətlə inkişaf edən və iqtisadiyyatı dinamik şəkildə şaxələndirilən ölkəsidir. Reallaşmaqda olan nəhəng nəqliyyat dəhlizləri həmin iqtisadi proseslərin həyata keçirilməsi üçün təməl daşı rolunu oynayır. Qeyd edilib ki, Azərbaycan zəngin neft ehtiyatlarına sahib olmasına baxmayaraq, Ələt zonası kimi logistika və istehsal komplekslərinin yaradılmasını hazırda öz milli iqtisadiyyatının prioritetləri sırasına daxil edib.

8-Cİ DÜNYA SU FORUMU KEÇİRİLİB

Martın 17-22-də Braziliyada Dünya Su Şurasının (DSŞ) təşkil etdiyi su ehtiyatları üzrə dünyanın ən böyük tədbirlərindən biri sayılan Səkkizinci Dünya Su Forumu keçirilib.

Tədbirdə ölkəmizi, Azərbaycandan BMT-nin İqtisadi və Sosial Şurası (ECOSOC) yanında əsas məşvərətçi statuslu beynəlxalq təşkilat olan Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti Umud Mirzəyev və onun köməkçisi Anastasia Lavrina təmsil edib.

Forumun rəsmi açılış mərasimində Braziliya Prezidenti Mişel Temer, dövlət başçıları, o cümlədən, Monako şahzadəsi Alber və Yaponiya şahzadəsi Naruhito ilə yanaşı, UNESCO-nun baş katibi Odri Azulay da iştirak edib.

Forum çərçivəsində Odri Azulay əhali artımı və iqlim dəyişikliyinin su təchizatı sahəsində yaratdığı problemlərin həllində su resurslarının idarə olunması üçün yeni həll yolları tapmağın zəruriliyi barədə danışıb.

Beş gün davam edən iclaslarda 160 ölkədən on mindən çox iştirakçı panel müzakirələrə qatılıb.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti Umud Mirzəyev səkkizinci Dünya Su Forumunda çıxışı zamanı bildirib ki, Dağlıq Qarabağda yerləşən Sərsəng su anbarının ekoloji mühiti Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi nəticəsində kəskin şəkildə pisləşib. Ermənistanın nəzarəti altında olan anbara məxsus ehtiyatlardan siyasi təhdid vasitəsi kimi istifadə olunur. Nəticədə əksəriyyəti qaçqın və məcburi köçkün olmaqla, cəbhə xəttində yaşayan azərbaycanlılar su çatışmazlığı problemini yaşayır və kənd təsərrüfatı ilə tam olaraq məşğul ola bilmir.

Umud Mirzəyev qeyd edib ki, bu anbar ətrafdakı təxminən 96 min hektar ərazini suvarma suyu ilə təmin etmək üçün inşa edilib. Ona görə də bu təxirəsalınmaz humanitar problemi nəzərə alan Avropa Şurası Parlament Assambleyası 2016-cı il yanvarın 26-da qətnamə qəbul edərək Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal çıxarılması və su ehtiyatlarından siyasi alət kimi istifadə olunmamasına dair qərar verib. Lakin bu qətnamə hələ də yerinə yetirilməyib.

BAMF-ın prezidenti, həmçinin 2010-cu ildə BMT Baş Assambleyasının insanın su təchizatı və sanitariya hüququnu tanıyan qətnamə qəbul etdiyini xatırladıb: "Hər kəsin şəxsi və məişətdə istifadə edə bilməsi üçün təhlükəsiz və fiziki olaraq su əldə etmək imkanı olmalıdır. Lakin bu gün su çatışmazlığından sülh, təhlükəsizlik və davamlı inkişafın dəstəklənməsinə yönəlmiş beynəlxalq sənədlərə, beynəlxalq norma və standartlara məhəl qoyulmadan siyasi maraqlar üçün istifadə olunur".

Umud Mirzəyev deyib ki, bu problem bu gün daha dəhşətlidir. Beynəlxalq ictimaiyyət bu problemi anlamalı və dünyada hər bir insanın təmiz suya olan ehtiyacını təmin etməlidir.

BAMF prezidenti suyun böhran deyil, sülh aləti olması üçün vətəndaş cəmiyyətinin bütün nümayəndələrini, qaçqın və məcburi köçkünləri bütün qüvvələri birləşdirərək əməkdaşlıq qurmağa çağırıb: "Gəlin birlikdə insan üçün həyati əhəmiyyət daşıyan su anbarları, çaylar və digər su mənbələrinin olduğu işğal edilmiş ərazilərin azad olunmasına çalışaq. Biz supergücləri yalnız siyasi maraqlarını düşünməyi dayandırmağa və insanların həyatları haqqında, evlərini tərk etməyə məcbur olmuş milyonlarla qaçqın və məcburi köçkünlərin həyatları barədə düşünməyə başlamağa inandırmalıyıq".

"Ətraf mühitlə bağlı cinayətlər və hüquq pozuntuları üçün məsuliyyət, ədalət və kompensasiya" adlı sessiyada çıxış edən Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) nümayəndəsi Anastasiya Lavrina bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi artıq 25 ildən çoxdur ki, davam edir. Bu problem Azərbaycanda 1,2 milyon qaçqın və məcburi köçkünün yaranmasına səbəb olub. Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağ və ona bitişik yeddi rayonu əhatə edən Azərbaycan torpaqlarının 20 faizini işğal edib. Cəbhə bölgəsində aparılan hərbi əməliyyatların ətraf mühitə təsiri çox dağıdıcıdır. İşğal olunmuş ərazilərdə təbii sərvətlərin həddindən artıq istismar olunması, davamlı olaraq atəşkəsin pozulması və Ermənistan tərəfindən ekoloji pozuntu faktının inkar edilməsi ekologiyanı məhv edir və minlərlə insanın lazımi şəraitdə yaşamaq hüququnu əlindən alır.

A.Lavrina hərbi münaqişələrin ətraf mühitə mənfi təsirindən danışarkən həmçinin Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazisində yerləşən Sərsəng su anbarının vəziyyətinə toxunub. Bildirib ki, Sərsəng su anbarı 1992-ci ildən Ermənistanın nəzarətindədir. Buna görə də Azərbaycanın cəbhə bölgələri sudan məhrum edilib. Su çatışmazlığı və davamlı olaraq atəşkəsin pozulması səbəbindən cəbhə bölgəsindəki torpaqların böyük hissəsi suvarılmır. Bu da torpaqda çatların yaranmasına və onun məhsuldar qatının məhvinə gətirib çıxarır. Azərbaycanın altı rayonu artıq fövqəladə vəziyyətdə olan, işğal səbəbindən mühafizə olunmayan bu su anbarının suyundan istifadə edə bilmir. Mühəndislər və alimlər xəbərdarlıq edirlər ki, bəndlər dağılarsa 30-dan çox kənd daşqın nəticəsində məhv olacaq. Fəlakət riski hazırda çox yüksəkdir və suyun axın səviyyəsindən aşağıda yerləşən altı rayonda yaşayan 400 min Azərbaycan vətəndaşının həyatı təhlükədədir.

BAMF-ın nümayəndəsi, həmçinin ermənilər tərəfindən suyun zəhərlənməsi və çirkləndirilməsi faktına toxunub. Bundan başqa, o, işğal olunmuş ərazilərdə təbii ehtiyatların Ermənistan tərəfindən istismar olunması və öz mənfəəti üçün istifadə edilməsindən danışıb.

Qeyd edib ki, Azərbaycanın ən zəngin mineralları işğal olunmuş ərazilərdədir. Bu ərazilərdə 155 növ müxtəlif mineral ehtiyatlar, o cümlədən hazırda Ermənistan tərəfindən istifadə olunan 5 qızıl yatağı var.

"Bütün bunlar Azərbaycan vətəndaşları üçün ekoloji fəlakət yaratmaq məqsədi daşıyan düşmən davranışdır. Belə davranışla Ermənistan təkcə başqa dövlətin ərazi bütövlüyü prinsipini deyil, həmçinin işğal olunmuş ərazilərdə daşınar və daşınmaz əmlakın məhv edilməsini qadağan edən bir sıra konvensiya və qətnamələri pozur. Ermənistanın hazırkı siyasəti BMT-nin ekoloji standartlarına ziddir", - deyə o bildirib.

Anastasiya Lavrina qeyd edib ki, Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin ekoloji cinayətkarlığı faktına beynəlxalq səviyyədə daha çox diqqət yetirilməlidir. O, beynəlxalq qurumları, vətəndaş cəmiyyətinin nümayəndələrini və forum iştirakçılarını səylərini birləşdirməyə və dünyanın müxtəlif bölgələrindəki hərbi böhran nəticəsində ortaya çıxan ekoloji problemləri həll etməyə çağırıb.

BAMF-ın nümayəndəsi deyib ki, su həyatdır və işğalçıların əlində silah olaraq istifadə edilə bilməz. Təəssüf ki, Ermənistan bütün norma və qaydaları pozur və Sərsəng su anbarından insanlara qarşı silah kimi istifadə edir. Bu, dayandırılmalıdır. Beynəlxalq təşkilatlar Ermənistana təzyiq göstərməlidir.

Müzakirələr zamanı BAMF tərəfindən hazırlanmış, Ermənistan silahlı qüvvələrinin nəzarəti altında olan Sərsəng su anbarında ekoloji fəlakətdən, Azərbaycanın cəbhə bölgələrində yaranmış su problemlərindən bəhs edən video nümayiş olunub.

DAŞINMAZ ƏMLAKIN QEYDİYYATI İLƏ BAĞLI BƏZİ MƏLUMATLARI SMS VASİTƏSİLƏ ÖYRƏNMƏK OLAR

Əmlak Məsələləri Dövlət Komitəsi vətəndaşlara daşınmaz əmlakla bağlı bir sıra əməliyyatlar zamanı dərhal məlumat almaq imkanı yaradır. Bu informasiyanı almaq isə olduqca sadədir və internet tələb olunmur. Məlumatı 9193 SMS nömrəsi vasitəsilə əldə etmək olar.

Komitədən bildirilib ki, daşınmaz əmlakla bağlı bir sıra əməliyyatlar komitənin 3 SMS xidməti vasitəsilə həyata keçirilir. Belə xidmətlər vasitəsilə daşınmaz əmlakın qeydiyyatı ilə bağlı tələb olunan xidmət haqqını və icra vəziyyətini öyrənmək mümkündür. Eyni zamanda, vətəndaş dövlət əmlakının icarəyə verilməsi ilə bağlı dövlət əmlakının istifadəsi müqabilində verilən icarə haqqı borcu haqqında informasiyanı əldə edə bilər.

Bu əməliyyatların yerinə yetirilməsi üçün vətəndaşın uzun prosedurdan keçməsinə ehtiyac qalmır. Belə ki, sadəcə çıxarış almaq üçün müraciət üzrə bildiriş nömrəsi və ya dövlət əmlakının icarə müqavilə kodu 9193-ə göndərilməlidir. Xüsusi olaraq portalda və ya səhifədə qeydiyyatdan keçmək, elektron imza almaq və ya digər internet prosedurlarını həyata keçirmək tələb olunmur. Yalnız mobil telefonun olması xidmətlərdən istifadə üçün yetərlidir. Bu isə vətəndaş məmnunluğunu artırmaqla onların vaxt itkisinin qarşısını alır. Nəticədə geniş əhali kütləsi və biznes qurumları rahat və operativ qaydada SMS xidmətlərindən yararlana bilirlər.

Komitənin belə xidmətləri istifadəyə verməsində başlıca məqsədi fəaliyyət sahələrində şəffaflığın səviyyəsini daha da yüksəltmək, xidmətlərdə əlçatanlığı, funksionallığı və operativliyi təmin etməkdir. Eyni zamanda, sosial məmnunluğu artırmaq, vətəndaş rahatlığını təmin etmək, məmur-vətəndaş ünsiyyətini minimuma endirmək, müasir dövrün tələbinə uyğun innovasiyaların tətbiqini genişləndirmək də əsas vəzifələrdəndir.

İstənilən vətəndaş daşınmaz əmlakına dair çıxarış almaq üçün müraciət etdikdə bildiriş nömrəsi əldə edir. Daha sonra şəxs həmin nömrəni 9193-ə SMS göndərməklə tələb olunan xidmət haqqı məbləğini dərhal öyrənə bilir. Həmçinin bu SMS xidməti vətəndaşın daşınmaz əmlakın qeydiyyatı üçün, rüsum da daxil olmaqla, tələb olunan xərci müəyyən etməsini təmin edir. Dövlət rüsumunun məbləği dəyişməz olsa da, xidmət haqqının məbləği Tarif Şurasının qərarına əsasən hesablanır və əmlakın ölçüsünə, yerləşdiyi zonaya və digər göstəricilərə görə dəyişir. Xidmət haqqının son məbləği qeydiyyat prosesində dəqiqləşir. SMS xidmət isə bu məbləği ərazi qeydiyyat idarəsinə getmədən öyrənməyə imkan verir. Vətəndaş həmin məbləği bank və ya elektron qaydada ödədikdən sonra hazır çıxarışı əldə edir. Xidmət haqlarını ərazi qeydiyyat idarələrində, o cümlədən respublika ərazisində quraşdırılmış elektron ödəniş terminallarından ödəmək imkanları da yaradılıb.

Digər SMS xidmət vətəndaşın çıxarış alması üçün müraciətinin icra vəziyyətinin hansı mərhələdə olmasını müəyyən etməyə imkan verir. Belə ki, vətəndaş ona verilən bildiriş nömrəsini SMS-lə 9193-ə göndərərək müraciətinin icra vəziyyəti barədə məlumatı dərhal almış olur. Bu məlumatlar vasitəsilə vətəndaş qeydiyyat prosesinin mərhələlərini mobil qaydada izləyir. SMS məlumatda çıxarışın hazırolma tarixi göstərilir. Vətəndaşın bu məlumatı əldə etmək üçün qurumun özünə gəlməsinə, çağrı mərkəzinə zəng vurmasına ehtiyac qalmır. Qeydiyyat prosesi qanunvericilikdə nəzərdə tutulmuş müddətdə davam edir və çıxarış bu müddətin sonunda hazır olur.

Komitənin dövlət əmlakının icarəsi ilə bağlı da SMS xidməti fiziki və hüquqi şəxslərin istifadəsindədir. Bu xidmət dövlət əmlakının icarəyə verilməsi haqqında bağlanmış müqavilələr üzrə icarə haqqı borcunu öyrənmək imkanı yaradır. Belə ki, hüquqi və fiziki şəxslər icarə müqaviləsi kodunu SMS-lə 9193-ə göndərərək cari borcu barədə məlumat ala bilir. Eyni zamanda, komitə tərəfindən bütün icarəçilərə ayda bir dəfə icarə borcu barədə SMS məlumat göndərilir.

Qeyd edək ki, hazırda komitənin fəaliyyət sahələri üzrə 37 elektron xidmət vətəndaşların istifadəsindədir. Bunlardan 24-ü daşınmaz əmlakın qeydiyyatı sahəsinə aiddir.

ŞİRKƏT ADINI DƏYİŞİR

Norveçin dövlət neft-qaz şirkəti Statoil adını dəyişməyi planlaşdırır.

Bu barədə təklif şirkətin Direktorlar Şurasının iclasında irəli sürülüb. Bundan sonra şirkətin "Equinor" adlanacağı bildirilir.

Bu addımın şirkətin neft və qaz hasilatından kənar enerji resursları ilə əlaqəli biznesini genişləndirmək strategiyasından irəli gəldiyini qeyd edən jurnalistlər yeni adın iki sözün birləşməsindən - Equi (bərabər, balanslı) və nor (Norveç) sözündən ibarət olduğunu diqqətə çatdırıblar.

Məsələ ilə bağlı yayılan press-relizdə şirkətin İdarə Heyətinin sədri Jon Erik Reinhardsen deyib: "Dünya dəyişir, Statoil də həmçinin. Müasir enerji sisteminin ən böyük dəyişikliklər məruz qaldığına şahidlik edirik və biz bu inkişafın önündə olmağa çalışırıq".

Rebrendinqin təxminən 230-250 milyon Norveç kronuna (30-32 milyon dollara) başa gələcəyini yazan KİV-lər şirkətin adının dəyişdirilməsi barədə qərarın tam olaraq qüvvəyə minmədiyini də vurğulayıblar. Belə ki, məsələ ilə bağlı yekun qərarın cari il mayın 15-də keçiriləcək səhmdarların illik yığıncağında qəbul olunacağı gözlənilir.

Qeyd edək ki, Statoil 1972-ci ildə yaradılıb və hazırkı adı "dövlət neft" kimi tərcümə olunur. Statoil dünyanın ən böyük neft-qaz şirkətlərindən biridir və onun əsas səhmləri Norveç hökumətinə məxsusdur. Şirkətin mənzil-qərargahı Stavanger şəhərində yerləşir.

Rauf Əliyev

QƏDİM LİMAN TAPILIB

Yunanların Palepolis adlandırdıqları və 25 əsr bundan əvvələ aid edilən Neapol limanı İtaliyanın məşhur "Kastel-del-Ovo" qəsri yaxınlığında aşkarlanıb.

Neapollu arxeoloq Mario Neqrinin məlumatına görə, arxeoloqlar qəsrin sağ küncünün altı metr dərinliyində su altında qalmış dörd tunel, təkər izləri və əsgərlər üçün səngər tapıblar.

"Bu tapıntı burada bir zamanlar mövcud olmuş şəhərin planını daha yaxşı vəziyyətə gətirməyə imkan verəcək", – deyə Mario Neqri qeyd edib.

Asiman Əsədov

YUNANISTANDA 148 UKRAYNA VƏTƏNDAŞI SAXLANILIB

Yunanıstanda 148 Ukrayna vətəndaşı saxlanılıb. Onlardan 132 nəfəri miqrantları qanunsuz daşımaqda ittiham olunur.

AZƏRTAC xəbər verir ki, bu barədə Ukrayna Xarici İşlər Nazirliyi məlumat yayıb.

Yunanıstan Ədliyyə Nazirliyi Ukrayna tərəfinə məlumat verib ki, saxlanılan 148 ukraynalının 105 nəfəri barəsində müxtəlif müddətə azadlıqdan məhrumetmə cəzası verilib. 43 nəfər barəsində istintaq əməliyyat tədbirləri aparılır.

Yunanıstan qanunvericiliyində qeyd olunur ki, miqrantların qanunsuz daşınmasına görə vətəndaşlar 25 ilə qədər azadlıqdan məhrum edilə bilərlər.

Emil Hüseynli

HÜNDÜRLÜYÜ 700 METRƏ YAXIN OLACAQ GÖYDƏLƏNİN TƏMƏLİ QOYULUB

Çinin Şencen şəhərində hündürlüyü 700 metrə yaxın olacaq göydələnin təməli qoyulub.

"Chinadaily.com.cn" nəşri xəbər verir ki, şəhərin Lunqan rayonunda inşa olunan göydələn Çində ən hündür birinci, dünyada isə "Bürc-Xəlifə"dən sonra ikinci uca bina olacaq. Hazırda Çinin uca binası 2015-ci ildə istifadəyə verilən 632 metr hündürlüyündəki "Şanxay qülləsi"dir.

Layihə dəyəri 8 milyard ABŞ dollarına yaxın olan göydələnin inşasının 2024-cü ildə başa çatması planlaşdırılıb. Binada ofislər, mənzillər, ticarət mərkəzləri, mehmanxanalar, sərgi zalları, orta məktəblər və s. yerləşəcək.

Qeyd edək ki, Çinin texnologiya şəhəri hesab olunan Şencendə göydələn inşası geniş vüsət alıb. Təkcə 2016-cı ildə şəhərdə 11 göydələnin inşası başa çatıb ki, bu da həmin il ABŞ-da tikilən göydələnlərin sayından çoxdur. Hazırda Şencendə dünyanın ən hündür 4-cü ("Ping An" maliyyə mərkəzi, 600m), 20-ci ("KK100" 442m), habelə 30-cu, 33-cü və 35-ci binaları yerləşir.

Şahin Cəfərov

HAVADAN İÇMƏLİ SU ALINMASI ÜÇÜN QURĞU YARADILIB

Massaçusets Texnologiya İnstitutunun alimləri səhranın quru havasından içməli su alınması üçün qurğu yaradıblar. Bu barədə məlumat "Nature Communications" jurnalında dərc edilmiş məqalədə yer alıb.

Qurğunun yaradıcıları məsaməli materialdan və ərp təmizləyən vasitədən istifadə ediblər. RİA Novosti mühəndislərin fikrindən sitat gətirərək yazır: "Biz bu materialı bir il əvvəl təqdim edəndə həmkarlarımız onun praktik işləyəcəyinə şübhə ilə yanaşdılar və çoxsaylı iradlarını bildirdilər. Biz səhra sınaqları keçirdik və hər bir iddianı yoxladıq".

Sınaq zonasında havanın sutkalıq temperaturu 15-25 dərəcə arasında dəyişib, rütubət isə 30 faiz olub. Gün ərzində 250 qram təmiz su əldə etmək mümkün olub.

Cihaz günəş şüalarının təsiri altında xüsusi qaba toplanan su buxarını məsaməli metal-üzvi materialda kondensasiya edir.

KÜR ÇAYI ÜZƏRİNDƏ KANAT İSTİFADƏYƏ VERİLİB

Mingəçevir turizm potensialı olan şəhərlərdən biridir. Şəhərdə yeni otellər, istirahət və əyləncə mərkəzləri inşa edilir, müasir infrastruktur yaradılır. Mingəçevirə gələn yerli və xarici turistlər Kür çayı üzərində qurulan yeni bir gəzinti-əyləncə vasitəsi olan kanatdan da istifadə edə biləcəklər.

Şəhərdə fəaliyyət göstərən beşulduzlu "Ağsaray" otelinin sifarişi ilə Kür çayının kənarındakı Sahil parkında yeni kanat xətti inşa olunub. Yay aylarında Mingəçevirə çoxlu turistin cəlb edilməsi üçün tikilən və bu günlərdə istifadəyə verilən kanat xətti iki kabinədən ibarətdir. Bu yeni əyləncə vasitəsi ilə çayın sağ sahilindən sol sahilinə keçmək mümkündür. Elektro matorla hərəkət etdirilən qurğu insanlara tam təhlükəsiz xidmət göstərir.

Metal troslar üzərində hərəkət edən kabinələrin hər biri 320 kiloqram çəkiyə malikdir və eyni vaxtda onun içərisində 4 nəfər rahat əyləşərək çay üzərində 10 dəqiqəlik gəzintiyə çıxa bilir. Kanatla bir nəfərin gəzintisi 2 manata başa gəlir. Gələcəkdə kabinələrin sayının artırılması nəzərdə tutulur.

Bundan əlavə, Mingəçevirə kiçik həcmli yeni müasir motorlu gəmilər də gətirilib. Turistlər bu nəqliyyat vasitələri ilə Kür çayında təhlükəsiz gəzintiyə çıxmaq imkanı əldə ediblər.

Şahnəzər Bəşirov

ƏN ÇOX SİLAH SATAN VƏ ƏN ÇOX SİLAH ALAN ÖLKƏLƏR



Özünün qabaqcıl müdafiə sənayesini yaratmağa müvəffəq olmayan Hindistan xaricdən ən çox silah və hərbi texnika alan ölkədir.

Stokholm Beynəlxalq Sülh Tədqiqatları İnstitutunun yaydığı hesabata görə, Hindistan 2013-2017-ci illərdə bütün dünyada silah idxalında 12 faizlik payla birinci olub. Hesabatda qeyd olunur ki, Hindistanın silah idxalında 2008-2012-ci illər və 2013-2017-ci illər arasında 24 faizlik artım müşahidə olunub. Bu ölkənin əsas silah və hərbi texnika aldığı dövlətlər Rusiya (62 faiz), ABŞ (15 faiz) və İsraildir (11 faiz).

Dünyada ən çox silah alan ölkələrin ilk onluğunda Səudiyyə Ərəbistanı, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Avstraliya, Əlcəzair, İraq, Pakistan və İndoneziya qərarlaşıb.



İnstitutun hesabatına əsasən, 2013-2017-ci illər üzrə dünyada silah ixracında ABŞ 34 faizlik payla liderlik edib. Sonrakı yerləri Rusiya, Fransa, Almaniya və Çin tutur. Əvvəlki dövrlərlə müqayisədə ABŞ-ın, Fransanın və Çinin silah satışı artıb, Rusiya və Almaniyanın ixracı isə azalıb. Özünün silah ixracında nəzərəçarpacaq artıma nail olan ölkələr arasında Türkiyə (145 faiz), Cənubi Koreya (65 faiz) və İsrail (55 faiz) öndə gəlir.

Bütün dünya üzrə silah idxalının 32 faizi bir çox hərbi münaqişələrin və toqquşmaların yaşandığı Yaxın Şərqin payına düşür. Bu regiona 2013-2017-ci illərdə idxal edilən silah və hərbi texnika 2008-2012-cü illərlə müqayisədə 2 dəfədən çox artıb.

DÜNYANIN ƏN YAŞAMALI ŞƏHƏRLƏRİ

Avstriyanın paytaxtı Vyana doqquzuncu dəfə "dünyanın ən yaşamalı şəhəri" seçilib.

İnsan resursları üzrə beynəlxalq konsaltinq mərkəzi "Mercer" tərəfindən tərtib edilən ümumdünya reytinqində şəhərlər həyat keyfiyyəti standartlarına görə sıralanır.

Builki dünya şəhərlərinin yeni siyahısında ilk onluqda yenə də Avropa şəhərləri üstünlük təşkil edir. Həmin siyahıda Sürix 2-ci, Münxen 4-cü, Düsseldorf 6-cı, Frankfurt 7-ci, Cenevrə 8-ci, Kopenhagen 9-cu və Bazel 10-cu yerləri tuturlar. Qeyri-Avropa şəhərlərindən Oklend (Yeni Zelandiya, 3-cü yer), Vankuver (Kanada, 5-ci yer) və Sidney (Avstraliya, 10-cu yer) də ilk onluqda yer alıblar.

Dünyanın 231 şəhərinin qiymətləndirilməsi əsasında tərtib edilmiş həmin siyahıda şəhərlərin təklif etdiyi ictimai xidmətlər, tibbi və təhsil imkanları, infrastruktur və nəqliyyat, ekoloji durum və yaşıllıqlar, sosial-mədəni tədbirlər diqqət mərkəzində dayanır. Eləcə də hər bir şəhərdə kriminogen vəziyyət, ölkədəki sosial-siyasi inkişafın şəhərə təsiri də qiymətləndirmədə mühüm rola malikdir. Qiymətləndirmə dünyanın müxtəlif şəhərlərində beynəlxalq təşkilatlarda çalışan və ya uzunmüddətli ezamiyyətlərdə olan işçilər arasında aparılan sorğu əsasında tərtib edilir. Ümumilikdə 39 kriteriya üzrə dəyərləndirilmənin aparıldığı ümumdünya reytinqi artıq 20 ildir ki dərc olunur.

Təşkilatın eksperti Ulrike Hellenkamp bildirib ki, Vyana şəhəri ilk növbədə ictimai təhlükəsizliyin səviyyəsi, yaxşı təşkil olunmuş ictimai nəqliyyat şəbəkəsi və həmçinin mədəniyyət və asudə vaxtın təşkili üçün geniş və keyfiyyətli imkanlarına görə respondentlərin rəğbətini qazanıb.

Həyat keyfiyyəti araşdırmasında sonuncu yerdə son illərdə olduğu kimi yenə də İraqın paytaxtı Bağdad şəhəri dayanır.

YARIZARAFAT, YARIGERÇƏK

Dünyaya gələndə rəyimizi soruşmayıblar. Gedəndə də soruşmayacaqlar.

Həyatda yaxşılıq etdiyim adamlardan yaxşı heç nə gözləməsəm də, onların hamısı məndən növbəti yaxşılıq gözləyib.

Hər yalanın içindən bir qorxu və hər qorxunun içindən bir yalan boylanır.

Yayda yatan, qışda batar.

Qəzəbini uda bilməyən heç nə udmaz.

Adam var üçü üçə vura bilməsə də, üç min adamı bir-birinə tez vurar.

Öz günümə salmamaq üçün heç kimə məsləhət vermədim.

Yaxşı davrana bilməyəcəyim adamlardan uzaq dururam.

Nə az anlayanlar, nə də heç anlamayanlar qorxulu deyil. Qorxulu anlamaq istəməyənlərdir.

İnsan olmağın bir yolunu bilməyənlər ev yıxmağın min yolunu bilirlər.

Mən başqalarının yazılarındakı səhvləri redaktə edirəm. Həyatdakı səhvlərini isə özləri düzətməlidirlər.

Dişimə-dırnağıma çox borcluyam. Elə şeylər var ki, onları dişimlə, dırnağımla müdafiə edirəm.

Dələduzluğun ən qorxulu forması savadı olmayanın vəzifə kürsüsündə oturmaq istəyidir.

Allah insana qanad verməyib. Bəlkə ona görə ki, insan özü insanı qanadlandıran işlər görsün.

Biz səhvlərimizdən dərs almaq əvəzinə onları unutmaqla daha böyük səhvlərə yol veririk.

Ətrafınıza diqqətlə baxın. Etibar etdiyiniz adamların çoxuna mən etibar etməzdim.

Pulu, vəzifəsi olanların müdriklərə daha çox ehtiyacı var.

Nəfsinə azadlıq verən, bütün azadlıqları ona qurban verər.

Kişiyə mərdlik qədər heç nə yaraşmır.

Cahil nə bilir dahi nə çəkir.

Axirətdə çətin olmasın deyə, hesab vermәyi bu dünyada öyrənin.

Ağlı olmayanların onu itirmək qorxusu yoxdur.

Pulun köləsi olmaq könüllü kölәlikdir.

Bəhanə axtardığımız kimi, yaxşı şeylər axtarsaydıq, çox şey qazanardıq.

Heyvanları sevmək azdır, onlara qarşı həmişə insan kimi rəftar etmək lazımdır.

Bir yerdə çox dayanmayın ki, ayağınızın altını qaza bilməsinlər.

Hansı tərəfdə işıq yoxdursa, o tərəfə işıq salmağa çalışın.

Ölümdən yox, o dünyaya səhvlərimin çiynində gedə biləcəyimdən qoxuram.

Hər şeyin yaxşı olacağını düşünməklə yaxşı heç nə olmur.

Heç olmasa, yaxşı nə isə etməyə çalışın.

İstedadlı adam şöhrətə əyilməyəndə daha çox ucalır.

Hər kəsin içində bir işıq var.

İnsan güzgüyə baxanda iç dünyasındakı səhvləri görə bilsəydi, bu qədər səhvə yol verməzdi.

"Ya bu gün, ya sabah!" dediyimiz işlərin əksəriyyətini sabaha saxlayırıq.

Uşaqlarla uşaq olmağı bacarmayanlar heç vaxt "böyük" olmadılar.

Keçmişi bir şey olmayanlar onu uydururlar.

Qarabağ savaşında nə sağımda, nə solumda, nə də arxamda olmayanların hamısı bu gün mənə "qəhrəmanlıq dastanı" danışır.

Şeirə sevgimdən poeziyadan başı çıxmayanlara heç vaxt şeir oxumadım.

İçiboş adamlar fürsət düşəndə yalnız ciblərini doldurmağa çalışırlar.

Gördüyümüz işləri bacarmayanlara gördüklərimiz o qədər asan görünür ki...

Bəzən varlıların dostluğu pulları qurtarana kimi, kasıbların dostluğu varlanana kimi çəkir.

Hər şeyin yaxşısını istəyən insan daha yaxşı insan olmağa niyə çalışmasın?

Namərdlər həmişə hərəkətdədir və həmişə də namərd kimi hərəkət edirlər.

İnflyasiya qara qəpiyə dəyməyənlərə uzağı nə qədər təsir edə bilər?

Rasif TAHİROV

DƏNİZ

6 aprel 2018-ci il № 25-28 (9211)

YELKƏNÇİMİZ BEYNƏLXALQ YARIŞDA YÜKSƏK NƏTİCƏ GÖSTƏRİB

Yelkənli İdman Federasiyasının gənc yelkənçisi Kristina Kərimova beynəlxalq yarışda yüksək nəticə göstərib.

Yelkənli İdman Federasiyasından verilən məlumata görə, o, Sloveniyada "Easter Regatta" adlı beynəlxalq yarışda 139 idmançının mübarizəsində dördüncü yeru tutub.

Yelkənli İdman Federasiyasının aktiv bazası 2014-cü ildən etibarən fəaliyyətə başlayıb. Həmin dövrdən bu günə kimi müntəzəm məşqlərə start verən Yelkənli İdman Federasiyasının yelkənçiləri Azərbaycanı bir çox beynəlxalq yarışlarda uğurla təmsil ediblər.

Qeyd edək ki, 2014-cü ildən etibarən Federasiyanın maddi-texniki bazası gücləndirilib, məşqçi korpusu formalaşdırılıb, o cümlədən yeni idmançılar cəlb olunub. Qarşıda duran məqsədlərə nail olunması üçün federasiya tərəfindən qabaqcıl Avropa şirkətlərindən yelkənli idman qayıqlarının gətirilməsi, eyni zamanda qısa müddət ərzində beynəlxalq səviyyəli məşqçilərin Azərbaycana dəvət edilməsi təmin edilib. Hazırda "Optimist" və "Laser" sinifləri üzrə iki komanda formalaşdırılıb. Bu siniflər üzrə ayrı-ayrılıqda, xaricdən dəvət edilən 2 baş məşqçi fəaliyyət göstərir. Komandaların məşqləri məhz xaricdən dəvət edilən idman menecerləri, yüksək göstəricilərə malik mütəxəssislərin rəhbərliyi ilə keçirilir.

BOKSÇULARIMIZ VİLNÜSDƏN YEDDİ MEDALLA QAYIDIBLAR

Litvanın paytaxtı Vilnüsdə gənc boksçular arasında Dan Poznyakın xatirəsinə həsr olunmuş ənənəvi beynəlxalq turnir başa çatıb. 13-cü dəfə keçirilən yarışda Azərbaycan millisi 7 medal qazanıb.

Bütün rəqiblərinə qalib gələn Nurlan Səfərov (60 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Yalnız finalda məğlub olan Nəbi İsgəndərov (56 kq) və Zaur Musayev (81 kq) gümüş medalla kifayətləndiyi halda, Maqsud Xasmətov (49 kq), Həsən İbrahimov (52 kq), Nicat Həsənov (69 kq) və Məhəmməd Yusifov (75 kq) üçüncü yeri tutublar.

Yığmamız komanda hesabında ikinci olub. Millimizi yalnız Rusiya boksçuları qabaqlayıblar.

V.Həşimov Memorialı 2018

"SHAMKİR CHESS-2018" SUPER ŞAHMAT TURNİRİNİN İŞTİRAKÇILARI MÜƏYYƏNLƏŞİB

Azərbaycanın məhrum şahmatçısı, beynəlxalq qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan ənənəvi "Shamkir Chess" super turnirinin iştirakçıları müəyyənləşib.

Turnir aprelin 18-dən 28-dək Şəmkirdə keçiriləcək. Ümumilikdə 10 şahmatçının qatılacağı yarış dairəvi sistem üzrə 9 turdan ibarət olacaq. "Shamkir Chess-2018"də hazırkı dünya çempionu norveçli Maqnus Karlsen, eks-dünya çempionu rusiyalı Vladimir Kramnik, güclü hollandiyalı şahmatçı Aniş Giri, çinli Dinq Liren, bolqarıstanlı Veselin Topalov, daha bir rusiyalı Sergey Karyakin mübarizə aparacaqlar. Yarışda Azərbaycanı hazırda dünya reytinqində ikinci olan Şəhriyar Məmmədyarov, beynəlxalq qrossmeysterlər Teymur Rəcəbov və Rauf Məmmədov təmsil edəcəklər.

Xatırladaq ki, sonuncu iki "Shamkir Chess" turnirinin qalibi Şəhriyar Məmmədyarov olub.

FUTBOLÇULARIN BƏDƏNLƏRİNƏ ŞƏKİL DÖYDÜRMƏSİ QADAĞAN EDİLƏCƏK

Çinli futbolçular yaxın gələcəkdə yeni bir qadağa ilə üzləşə bilərlər.

Çinli futbolçuların bədənlərinə şəkil döydürməsi qadağan ediləcək.

Çinin gənclərdən ibarət yığma komandasının oyunçuları Suriya komandası ilə matçda, milli komandanın futbolçuları isə Uels komandası ilə oyunda gənc televiziya tamaşaçılarına nümunə olmaması üçün öz bədənlərindəki döymə şəkillərin üstünə lent yapışdırıblar.

Çin Futbol Assosiasiyası həm milli liqada, həm də oyunçuların yaşlarından asılı olmayaraq bütün yığma komandalarda çinli oyunçuların öz bədənlərinə şəkil döydürməsinin qadağan olunması barədə qərar hazırlayır.

Çində televiziyada çıxış edən artistlərin də bədənlərinə şəkil döydürməsi qadağandır.

UEFA ÇEMPİONLAR LİQASI VƏ AVROPA LİQASININ REQLAMENTİNDƏ DƏYİŞİKLİKLƏR EDİB

UEFA Çempionlar Liqası və Avropa Liqasının 2018-2019-cu il mövsümündə reqlament dəyişikliyini təsdiqləyib.

Dəyişikliklərə əsasən, pley-off matçlarında əlavə vaxt zamanı dördüncü əvəzetməyə icazə veriləcək. Çempionlar Liqası, Avropa Liqası və UEFA Super Kubokunun final oyununda, iştirak ərizəsinə 23 futbolçunun adını daxil etmək mümkün olacaq. Beləliklə, ehtiyat oyunçular skamyasında yeddi oyunçu əvəzinə 12 futbolçu əyləşə biləcək.

Çempionlar Liqası və Avropa Liqasında qrup mərhələsi başa çatdıqdan sonra klublar avrokuboklarda çıxış etmək üçün heç bir məhdudiyyət olmadan üç futbolçu heyətinə qata biləcəklər. Bu, qış transfer dövründə klubu dəyişən oyunçuların turnirlərdə iştirak etməsi üçün heç bir məhdudiyyət olmadığı müxtəlif milli çempionatlarda mövcud normativ vəziyyətə cavab verir.

Çempionlar Liqası və Avropa Liqasında oyunların başlama saatlarında da dəyişiklik olacaq. Çempionlar Liqasının pley-off, qrup mərhələsi, səkkizdəbir, dörddəbir, yarımfinal və final matçları Avropa vaxtı ilə saat 21:00-da başlayacaq. Həmçinin qrup mərhələsinin çərşənbə axşamı və çərşənbə günü baş tutacaq iki görüş saat 18:55-də start götürəcək. Qrup mərhələsinin son turunda bütün oyunlar eyni vaxtda başlayacaq.

Avropa Liqasında qrup mərhələsindən səkkizdəbir finaladək olan görüşər saat 18:55-də və 21:00-da start götürəcək. Hər bir oyunun başlama saatı püşkatmaya uyğun təyin ediləcək. Sonuncu turda hər bir qrupda matçlar eyni vaxtda keçiriləcək. Dörddəbir, yarımfinal və final matçları 21:00-da başlayacaq.

UEFA görüşlərin başlama saatlarına dəyişiklik etmək hüququna malikdir.

Avropa Liqasında ardıcıl üç mövsüm və ya ümumilikdə beş dəfə qalib olan komanda formasında bunu əks etdirən nişanı daşımaq hüququ qazanacaq. Növbəti mövsümdə yarışda iştirak edəcəyi təqdirdə, İspaniyanın "Sevilya" klubu bunu edə biləcək. Andalusiya təmsilçiləri 2006-cı, 2007-ci, 2014-cü, 2015-ci və 2016-cı illərdə Avropa Liqasında birinci yeri tutublar. Eyni ənənə Çempionlar Liqasında da var.

UEFA Super Kuboku uğrunda oyun saat 21:00-da start götürəcək. Dəyişiklik bu il avqustun 15-də Estoniyanın paytaxtı Tallinndə baş tutacaq matça da şamil olunur.



İDMANÇIMIZ TURNİRİN REKORDUNU YENİLƏYİB

Slovakiyanın Jilina şəhərində güzgüçülük üzrə yeniyetmələrin Olimpiya Oyunlarına lisenziya xarakterli açıq birincilik keçirilib.

Yarışda ölkəmizi 9 güzgüçü təmsil edib.

Milli komandamızın üzvü Maksim Şemberev müxtəlif üsulla güzgüçülük yarışlarında 4 qızıl və 1 gümüş medal qazanıb. Həmçinin idmançımız turnirin rekordunu da yeniləyib. Digər güzgüçümüz Fatimə Alkaramova isə 3 qızıl və 2 bürünc medal əldə edib.

Yığmamızın üzvləri Ayan Kələntərova 1 qızıl, 4 gümüş, Alsu Bayramova 2 qızıl, 1 bürünc, Ramil Vəlizadə 3 gümüş, Rəşad Əlquliyev gümüş və Vəli İsrafilov isə bürünc medala yiyələniblər.

DƏNİZÇİ OLMAQ İSTƏYƏN ABİTURİYENTLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Dövlət Dəniz Akademiyası dənizçi olmaq istəyən abituriyentlərə müraciət edib.

Azərbaycan Dövlət Dəniz Akademiyasının ixtisaslarını seçən abituriyentlər elektron ərizələrini təsdiq etdikdən sonra 1 aprel - 3 avqust tarixlərində Kazım Kazımzadə küç., 120A ünvanında yerləşən ("Elmlər Akademiyası" metrosu yaxınlığında, Mərkəzi Gömrük Hospitalının yanı) "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Dənizçilər poliklinikası" MMC-yə müraciət etməlidirlər.

İş günləri: I –V günlər

İş saatı: 9:00 – 15:00

Abituriyentlər tibbi komissiyaya aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Şəxsiyyət vəsiqəsi, hərbi qeydiyyata alınma haqqında vəsiqə (və ya hərbi bilet), abituriyentin elektron ərizəsi (iş nömrəsi)

2. Ruhi Əsəb Dispanserindən arayış, narkoloji dispanserdən arayış, xəstəliklə əlaqədar olaraq qeydiyyatda olduğu poliklinikadan qısa epikriz.

ALLAH RƏHMƏT ELƏSİN

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Gəmiçiliyin Neft Donanması üzrə texniki direktoru İsrail Bayramova, oğlu

ELTUNUN

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

PİS QİDALANMA KARDİOLOJİ XƏSTƏLİKLƏRİN ƏSAS SƏBƏBİDİR

Macarıstan qan dövranı xəstəliklərinin səbəb olduğu ölüm hallarının sayına görə Avropa ölkələri arasında üçüncü yeri tutur. İstər kişilər, istərsə də qadınlar arasında xəstəliklərin çoxu yüksək qan təzyiqi ilə bağlıdır. Bunu "Generali" sığorta şirkətinin apardığı araşdırma göstərib.

Macarıstanda ölüm hallarının 30 faizinin səbəbi miokard infarktıdır, hərçənd macarlar üçün digər statistik məlumatlar da xoşagəlməzdir. Macarlar ürək-damar sistemi ilə bağlı xəstəliklərə görə xəstəxanada orta hesabla daha çox yatırlar (11 gün) və bu da, məsələn, Danimarkada olduğundan iki dəfə (5,5 gün) çoxdur.

Bundan əlavə, Avropada yüksək qan təzyiqi əleyhinə dərmanlar yazılmış reseptlər ən çox Macarıstanda verilir. Macar kişilərin üçdəbir, qadınların isə dörddə üç hissəsindən çoxu arterial təzyiqlə bağlı problemlərdən əziyyət çəkir.

Sığorta şirkətində bildiriblər ki, pis qidalanma və xolesterinin səviyyəsinin yüksək olması arterial təzyiqi yaradan əsas amillərdən biridir. Siqaretçəkmə, qəhvə və alkoqol ürək-damar sisteminə ziyan vurur. Yalnız cüzi miqdarda şərab yaxşı təsir göstərir.

"Egészségközpont" sağlamlıq kompleksinin həkimi Ercebet Bankuti deyib: "Hər gün 30 dəqiqə yerimə və asta qaçış insanın sağlamlıq durumunu xeyli yaxşılaşdırır".

"Generali" şirkəti profilaktikaya xüsusi diqqət yetirməyi, müntəzəm müayinə olunmağı tövsiyə edir, çünki erkən mərhələdə üzə çıxarılan xəstəliklərin sağalması şansı çox yüksəkdir.

Pərvanə Qarayeva

YÜKSƏK KALORİYƏ MALİK SƏHƏR YEMƏYİ ARIQLAMAĞA KÖMƏK EDİR

Tel-Əviv Universitetindən olan tədqiqatçıların fikrincə, yüksəkkalorili səhər yeməyi piylənmədən və 2-ci tip şəkərli diabetdən əziyyət çəkən xəstələrin arıqlamasında kömək edir, diabetin əlamətlərini yüngülləşdirir və insulinə tələbatı azaldır.

"Medportal" saytı xəbər verir ki, yeni tədqiqat xəstələrdə yüksəkkalorili səhər yeməyinin, orta miqdarda kalorili nahar və yüngül şam yeməyinin ənənəvi pəhrizdən, yəni gün ərzində 6 dəfə yeməklə kalorinin bərabər miqdarda bölündüyü müalicə pəhrizindən daha effektiv təsir göstərdiyini aşkar edib.

Tədqiqatın müəllifi Daniela Yakuboviçin fikrincə, səhər yaxşı yeyən xəstələr gün ərzində aclıq hissi keçirmir. Bu, həmçinin çəkinin azalmasına kömək edir, eləcə də insulindən az miqdarda istifadə edilir.

"Qida qəbulunda yeməyin vaxtı və miqdarı gün ərzində kalorinin dəqiq və bərabər miqdarda bölünməsindən daha yaxşıdır. Bizim metabolizm gün ərzində dəyişir. Səhər yeyilən bir tikə çörəklə axşam yeyilən həmin miqdarda çörəyin orqanizmə təsiri tamam fərqlidir", - deyə Daniela Yakuboviç söyləyib.

D.Yakuboviç və onun həmkarları piylənmə və 2-ci tip şəkərli diabetdən əziyyət çəkən, insulinlə müalicə olunan 11 qadın və 18 kişinin səhhəti ilə bağlı müşahidə aparıblar. Onların orta yaşı 69 olub. Pasiyentləri iki qrupa bölüblər, lakin onların gün ərzində qəbul etdikləri kalorinin miqdarı eyni olub. Birinci qrupda səhər yeməyi yüksəkkalorili, nahar orta, şam yeməyi yüngül olub. İkinci qrup üçün ənənəvi pəhriz olub: gün ərzində 6 dəfə - səhər, günorta və axşam yeməyi və bunlar arasında üç dəfə olmaqla bərabər miqdarda kaloriya malik qida qəbulu.

Üç aydan sonra birinci qrupdan olanlar orta hesabla 5 kiloqram, ikinci qrupdakılar isə 1,4 kiloqram arıqlayıb. Birinci qrupda karbohidrata tələbat və aclıq hissi ikinci qrupdan az olub. Bundan başqa, birinci qrupda qlükozanın miqdarı eksperimentin ilk 14 günündə xeyli azalıb, habelə pasiyentlər insulindən daha az istifadə ediblər.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152

TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar
Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1019